HACI TOFİQ SEYİDOV

# AZƏRBAYCANIN İNCİSİ NAXÇIVAN MR-85

BAKI – 2009

Rəyçilər: **YAQUB MAHMUDOV**
*AMEA-nın müxbir üzvü, professor, AMEA-nın tarix İnstitutunun direktoru*

**VƏLİ BAXŞƏLİYEV**
*AMEA-nın müxbir üzvü tarix elmləri doktoru, AMEA-nın Naxçıvan bölgəsinin Tarix İnstitutunun şöbə müdiri*

Redaktor: **ƏLƏSGƏR BEHBUDLU**
*«Naxçıvan» qəzetinin baş redaktoru*

**Müəllifin 32-ci kitabıdır.**

*Bu kitabda Naxçıvan MR 85 illiyinə aid tarixi materiallar, mədəniyyət, elm və səhiyyənin inkişaf yolları işiqlandırılır.*

*Kitabda həmçinin Muxtar Respublikanın görkəmli mütəfəkkirləri, elm xadimləri, mədəniyyət xadimləri haqqında da ətraflı məlumat var. MR idarə, müəssisə təşkilatları və rayonlarının qazandığı uğurlar haqqında da uğurlu nəticələr var.*



# HACI TOFİQ SEYİDOV

**ADPU-nun dissertantı, AYB-nin və AJB-nin üzvüdür**

## NAXÇIVAN

Tarixini sətir-sətir oxudum,
Həm qədimsən, həm yenisən, Naxçıvan!
Şərəfinə söz çələngi toxudum,
Sən də Vətən gülşənisən, Naxçıvan!

Göylərində Azərbaycan bayrağı,
Evlərində yanır ümid çırağı,
Möminələr, Əcəmilər torpağı,
Cavidlərin vətənisən, Naxçıvan!

Çaylarının səsi sanki layladır,
«Badamlı»n da, «Sirab»ın da əladır,
Sədərəyin özün boyda qaladır,
Məğlub elə düşməni sən, Naxçıvan!

Heydər qoynunda doğulub, boy atıb,
Nəsillərə nümunədir həyatı,
İlhamlıdır bu günün toy-büsatı,
Xarüqələr məskənisən, Naxçıvan!

Halal nemət bol çörəyin, duzundur,
Keşiyində duran oğlun, qızındır,
Əsgər Bədəl Xan da səndən razıdır,
Onun halal dastanısan, Naxçıvan!

**Əsgər Bədəl Xan,**
**DAK-ın Folklor şöbəsinin rəhbəri**

# MÜQƏDDİMƏ

Qədim Şərq özünəməxsus tarixi inkişaf yolu keçmişdir. Burada ilk insan cəmiyyəti yaranmış, digər xalqların da iqtisadi, mədəni həyatına böyük təsir göstərmişdir.

Qədim Şərqin sıx qonşuluğundan biri olan regionlardan biri də Azərbaycan ərazisi olmuşdur. Artıq e.ə. III minillikdə Azərbaycanın cənubunda ilk dövlət qurumları yaranmış, onlar da Şərqin, o cümlədən iqtisadi, mədəni həyatına böyük təsir göstərmişdir.

Azərbaycanın qədim Şərq ölkələri ilə iqtisadi, mədəni əlaqələrinin yaranmasında coğrafi mövqeyinə görə Naxçıvan şəhəri də özünəməxsus rol oynamışdır.

Eneolit, Tunc dövründə şəhərdə sənətkarlığın müxtəlif sahələri-dulusçuluq, zərgərlik, memarlıq, toxuculuq kimi sahələri daha da inkişaf etmişdir. Bu inkişaf da şəhərin daha da inkişafına, tərəqqisinə böyük təsir göstərmişdir.Artıq eramızdan əvvəl III-II minillikdə Naxçıvan şəhərinin qədim Şərq ölkələri olan Misir, Assuriya, Babilistanla sıx iqtisadi, mədəni əlaqələri olmuşdur. Bunu şəhər ətrafından aşkar olunun Babilistanda istehsal olunmuş silindrik möhürlər, müxtəlif formalı muncuqlar da aydın göstərir. Həmin dövrdə Naxçıvan şəhərində istehsal olunmuş müxtəlif sənət məhsulları, o cümlədən gözəl, yaraşıqlı bəzək əşyaları, boyalı saxsı qablar bu əraziyə də Şərqdə geniş şöhrət qazandırmışdı.

Qədim Şərq ölkələri ilə qarşılıqlı əlaqələr şəhərin memarlıq tikililərinə də böyük təsir göstərmişdir. Qədim Şərq memarlığına xas olan bütün gözəlliklər, incilər şəhərə və onun ətrafında aşkar olunan Qızılvəng, Kultəpə mədəniyyətlərinə də böyük təsir göstərmişdir. Bütövlükdə qarşılıqlı əlaqələr qədim Şərq sivilizasiyasının Azərbaycanda yayılmasında, Naxçıvan şəhərinin daha da inkişafında, tərəqqisində müstəsna rol oynamışdır.

Şəhərin Şərq dünyasında tanınmasında istehsal olunan sənət məhsulları ilə yanaşı, təbii sərvətləri olan müxtəlif

müalicəvi mineral suları, duz məhsulları da böyük rolu oynamışdır. Buna görə şəhərin adı, sərvətləri müxtəlif ölkələrdə yaşamış səyyahların, tarixçilərin daha çox nəzər-diqqətini cəlb etmişdir.

Antik dövrün yunan-Roma mənbələrində, xüsusilə Ptolomey, Strabon, Böyük Pliniy əsərlərində şəhər və onun coğrafi mövqeyi, ticarət yolları haqqında geniş məlumatlara rast gəlirik. Bu da onu göstərir ki, şəhər antik dövrdə yunan-Roma dünyasında geniş şöhrət qazanmışdır. Şəhərdə istehsal olunan sənət məhsullarında həm Şərq, həm də Elminizm dünyasının təsiri daha yaxşı əks olunmuşdur.

Naxçıvan şəhərinin Şərq və Ellinizm -Roma dünyası ilə əlaqələrinn şəhər və onun ətrafından aşkar olunan Makedoniyalı İsgəndərin, Ellinist dövlətlərdə elan səlevgilərin, habelə Parfiya, Roma puları da aydın göstərir. Antik və orta əsrlərdə Şərqlə, Qərbin qarşılıqlı əlaqələrində özünəməxsus rol oynamış «Böyük İpək Yolu» da Naxçıvanla bağlı olmuş, onun iqtisadi, siyasi və mədəni həyatına böyük təsir göstərmişdir. Parfiya dövlətinin ərazisindən keçən «Böyük İpək Yolu» Əkbətana – Qazaxa Naxçıvan vasitəsilə Qara dəniz sahili şəhər dövlətlərə doğru getməklə şəhəri yunan komandalarında, Sirmat-Alan dünyasında da tanıtmışdılar. Bütün bunlara görə də yadelli işğalçılar bu şəhəri ələ keçirməyə can atmışlar. Lakin şəhər və onun əhalisi daima yadellilərin tənəzzülünə müqavimət göstərərək öz ərazisini qoruyub saxlamışdır. Bunu şəhər və onun ətrafından aşkar olunan müxtəlif formalı əyilməz qalalar da aydın göstərir.

Orta əsrlərdə Naxçıvan şəhəri Xilafat dünyası ilə sıx bağlı olmuş, onun zəngin milli-mənəfi dəyərləri burada geniş yayılmışdır. İslamın müqəddəs kitabı olan «Qurani-Kərim»də adı çəkilən «Əshabu-Kəf» kimi möhtəşəm dini abidə də Naxçıvanda aşkar olunmuşdur. Orta əsr ərəb və Avropa səyyahları Naxçıvanın təbii şəraiti, sərvətləri, memanlığı və sənətkarlığı, ticarəti haqqında xeyli maraqlı məlumatlar vermişlər.

Çar Rusiyası və Sovet İttifaqı dövründə Naxçıvan şəhəri böyük nailiyyətlər əldə etmişdir. Muxtar diyarın qəhrəman oğul və qızları Sovet İttifaqının möhkəmlənməsində öz töhfələrini vermişlər.

Naxçıvan şəhəri həm də Azərbaycanın mühüm elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Dünyada öz memarlıq məktəbi ilə tanınan Əcəmi Naxçıvanı Hindistanda inşa olunmuş Tac-Mahal məqbərəsinin tikintisində fəal iştirak etmişdir. Görkəmli şair və yazıçılar Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məmməd Araz, İslam Səfərli, elm xadimləri Yusif Məmmədəliyev, Abutalıbovlar, Kəngərlilər, Şahtaxtinskilər bu torpaqda doğulub boya-başa çatmışlar. Naxçıvan həmçinin ulu öndərimiz Heydər Əliyevin boya-başa çatmasında, formalaşmasında böyük rol oynamışdır. Fitri istedada, dərin zəkaya malik H.Əliyev sivill dövlətlərin rəhbərlərindən biri olmaqla Azərbaycan xalqını da dünyaya tanıtdırmışdır.

Əziz oxucu, bu kitabı vərəqlədikcə Azərbaycanın qədim və dilbər güşələrindən olan, dünya memarlığına öz sənət incilərini bəxş etmiş Naxçıvan şəhərinin tarixi ilə yaxşı tanış olmaqla, xalqımızın keçdiyi keşməkeşli yolla da, onun qədim və orta əsrlərdə milli-mənəvi dəyərləri, əlaqələri ilə də yaxından tanış olacaqsınız.

**NAMİQ ƏLİYEV**
**Tarix elmləri namizədi,**
**«Palitra» qəzetinin baş redaktoru**

**QƏHRƏMAN AĞAYEV t.e.n. dosent.**
**AMEA-nın Arxeologiya və Etnoqrafiya**
**İnstitutunun elmi əməkdaşı**

# AZƏRBAYCANIN İNCİSİ



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2009-cu il fevralın 6-da "Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalamışdır. Sərəncamda bildirilir ki, Naxçıvan MR-in 85 illiyinin qeyd olunması olduqca mühüm və zəruri bir məsələdir. Çünki Ermənistanın apardığı təcavüzkar siyasət nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan bu diyarın tam dolğun, obyektiv tarixi xalqımıza, dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinn tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir. Prezidentin sərəncamında Naxçıvan MR-in 85 illik yubileyinin geniş qeyd olunması qərara alınmışdır.

Naxçıvan Muxtar Respublikası ərazisinin çox hissəsini Kiçik Qafqazın Zəngəzur və Dərələyəz silsilələri və qolları əhatə edir. MR-in 5,5 min kvadratkilometr sahəsi, 365 min nəfərdən artıq əhalisi var. Əhalisini azərbaycanlılar



təşkil edir. Onlardan 198 min nəfəri əməklə məşğuldur. Bir kvadratkilometr əraziyə 68 nəfər düşür. Naxçıvan MR-də 7 rayon - Şərur, Babək, Ordubad, Culfa, Şahbuz, Sədərək, Kəngərli, 4 şəhər - Naxçıvan, Ordubad, Şərur, Culfa, 2 şəhər tipli qəsəbə, 215 kənd və qəsəbə var. Muxtar Respublika üç dövlətlə - Türkiyə, İran və Ermənistanla həmsərhəddir. 17 ildir ki, Ermənistanın təcavüzü nəticəsində blokada şəraitində yaşayır.

Qədim Şərqdə Naxçıvanın özünəməxsus xüsusi yeri olmuşdur. Arxeoloqlarımızın tədqiqat və araşdırmalarından məlumdur ki, Naxçıvanın tarixi eramızdan əvvəl II minilliyin sonuna və I minilliyə təsadüf edir. Yeni dəmir eneolit dövründən yaranmış qala şəhərləri Şahtaxtı, Oğlanqala, Gavurqala, Gülüs qalası, Qarabağlar və Sədərək İstehkam qalasının tarixi bunları deməyə əsas verir. Batabat yayla-

ğında, Qazma mağarasında, Naxçıvançay və Əlincəçay vadilərində, Ordubad rayonu ərazisindəki Kilit mağarasında, İlandağın ətəyində və digər abidələrdə daş dövrü mədəniyyətinin izləri aşkar olunmuşdur. Tunc dövründə Naxçıvan yüksək incəsənəti ilə də Yaxın Şərqdə tanınmışdır.

Qədim yunan coğrafiyaşünası Klavdiy Ptolomey Naxçıvanın dünyanın qədim şəhərlərindən olduğunu bildirmişdir. "Tarixin atası" adlanan Herodot da öz əsərlərində Azərbaycan və Naxçıvan haqqında qiymətli fikirlər və əsaslı məlumatlar vermişdir.



Çox əlverişli və strateji coğrafi-siyasi məkanda yerləşdiyinə görə Naxçıvan daim xarici dövlətlərin işğalına məruz qalmışdır. Məsələn, İlandağda e.ə. 820-810-cu illərə aid aşkar edilmiş mixi yazılardan məlum olur ki, Urartu çarları dəfələrlə buraya hücum etmişlər. İşğalçılara qarşı mübarizə məqsədilə regionun qədim yaşayış yerlərində Oğlanqala, Qalacıq, Çovuqqala və s. möhtəşəm müdafiə istehkamları inşa edilmişdir. O da məlumdur ki, hələ e.ə. skiflər, makedoniyalı İskəndər, sonralar isə sasanilər, bizanslar, səlcuqlar və monqol-tatarlar da bu diyardan keçən qədim İpək yolunun strateji əhəmiyyətini nəzərə alaraq Naxçıvana hücum etmişlər.

Tarixən Naxçıvanın təbii sərvətləri kimi, zəngin mədəniyyəti də dünya alimlərinin diqqətini həmişə cəlb etmişdir. Fyodorov, Petrovski, Müller, Spıtin və başqaları Naxçıvanın və Azərbaycanın qədim abidələrini tədqiq et-

mək üçün onun qiymətli nümunələrini Rusiyaya və dünyanın digər ölkələrinin muzeylərinə daşımışlar. Naxçıvan həm də ticarət mərkəzi kimi VII əsrdə Şərqlə Qərb arasında, Araz çayı boyunca Hindistan və Çinə qədər şöhrət qazanmışdır.

XVIII əsrin 30-40-cı illərində milli azadlıq müharibəsi zamanı Naxçıvanda da xanlıqlar yaranmışdır. Lakin 1826-28-ci illər Rusiya-İran müharibəsi dövründə Naxçıvanı rus qoşunları tutdular. O dövrdə Naxçıvan diyarında kənd təsərrüfatı, sənətkarlıq və ticarət daha da sürətlə inkişaf etmişdi. 1837-ci ildə Naxçıvanda vilayət məktəbi, Ordubadda ibtidai məktəb, Əylisdə ticarət məktəbi, sonra isə qadınlar məktəbi açılmışdır.

XX əsrin əvvəllərindən başlayaraq Naxçıvan daim erməni daşnaklarının təcavüzünə məruz qalmışdır. Hələ 1918-20-ci illərdə daşnaklar ingilislərin və rusların himayəsindən istifadə edərək Naxçıvan diyarının ilhaq edilməsi üçün canfəşanlıq göstərirdilər. Yalnız Azərbaycan Xalq Cümhuriyyətini tanıyan və öz gələcəyini onun hakimiyyəti altında qurmaq istəyən Naxçıvan əhalisinin və Türkiyə hökumətinin köməyi erməni qəsbkarlarının öz mənfur niyyətlərini həyata keçirməyə imkan verməmişdi.
Bolşeviklərin hakimiyyəti dövründə Naxçıvanın başı çox bəlalar çəkmişdir. Belə ki 1920-ci ildə qədim Azərbaycan ərazisi olan Zəngəzur mahalının Ermənistan SSR-in tərkibinə qatılması ilə Naxçıvan ərazi cəhətdən Azərbaycandan ayrı salınmışdır.

1921-23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-24-cü illərdə Naxçıvan diyarı, 1924-cü ildən 1990-cı ilədək Naxçıvan Muxtar Sovet Sosialist Respublikası adlandırılmışdır.

1921-ci ilin mart ayında Azərbaycanın himayəsi altında Naxçıvanın muxtar statusu RSFSR ilə Türkiyə arasında imzalanmış Moskva müqaviləsi ilə təsbit olundu. 1921-ci il sentyabrın 13-də RSFSR-in iştirakı ilə Azər-

baycan SSR, Ermənistan SSR, Gürcüstan SSR və Türkiyə arasında imzalanmış Qars müqaviləsinə əsasən Naxçıvanın ərazisi, sərhədləri daha da dəqiqləşdirildi. Naxçıvan Azərbaycanın tərkibində muxtar ərazi kimi təsdiq edildi.

1929-cu ildə Zaqafqaziya MİK-in sərəncamı ilə Naxçıvanın 657 kvadratkilometr sahəsi Ermənistana verildi. Bir il sonra daha bir neçə ərazi, o cümlədən Mehri rayonu Naxçıvandan alındı.

Naxçıvan MR-in tarixində ən önəmli hadisələrdən biri ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də onun adının dəyişdirilərək Naxçıvan MR adlandırılmasıdır.

Naxçıvan məhz böyük öndərimiz Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 70-80-ci illərdə inkişaf və tərəqqi yoluna qədəm qoymuşdu. Bu illərdə Naxçıvanın iqtisadiyyatı intensiv inkişaf etmişdir. 80-ci ilin nəticələrinə nəzər salsaq, görərik ki, daş duz və şüşə istehsalı 90 faizdən çox, konserv istehsalı 20 faiz, ipək-pambıq məhsulu 22 faiz təşkil etmiş, tütün tədarükü, dağ-mədən filizi, üzüm istehsalı dəfələrlə artmışdır. Lakin 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində iqtisadi bazanın dağıdılması regiona ağır başa gəldi. Yalnız 1995-ci ildən başlayaraq həyata keçirilən iqtisadi islahatlar böhranı aradan qaldırmağa imkan verdi. Hazırda Naxçıvanda 300-dən çox kiçik müəssisə fəaliyyət göstərir. Sahibkarlığın inkişafına diqqət artırılıb. Kənd təsərrüfatına əvəzsiz yardım olaraq təkcə 2000-ci ildə 30-dan çox yeni texnika alınmışdır. 2001-ci ilin əvvəllərində muxtar respublikada 78.291 şəxsi təsərrüfat, 165 kəndli (fermer) təsərrüfatı, yerli kənd təsərrüfatı emalı ilə məşğul olan onlarca zavod, digər dövlət və özəl müəssisələri işləyir. Taxıl istehsalı, yem tədarükü, şəkər çuğunduru, meyvə, tərəvəz, kartof və heyvandarlıq ilbəil inkişaf etdirilir. İstehsal edilən qida məhsulları yerli tələbatı tam ödəyir. Artıq məhsul isə Yaxın və Uzaq Şərqə ixrac olunur.

11 fevral 2004-cü ildə Azərbaycan Prezidenti İlham Əliyevin fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" yaxın beş ildə regionun hərtərəfli inkişafına güclü təkan vermişdir. Fərmanda və Dövlət Proqramında rayonlarda sosial-iqtisadi inkişafı sürətləndirmək məqsədilə dövlət siyasətinin əsas istiqamətləri müəyyən edilmişdir.

Proqrama əsasən, Naxçıvan Muxtar Respublikasında bir çox mühüm tədbirlərin görülməsi planlaşdırılıb. O cümlədən Vayxırda montaj-tikinti işlərinin başa çatdırılması, Culfada avtomobil şose yolunun təmiri, Ordubadda rayonlararası yeni yolun çəkilməsi, bir çox mühüm obyektlərdə rekonstruksiya işlərinin sürətləndirilməsi, yeni iş yerlərinin açılması, əhalinin elektrik enercisi ilə mütəmadi təmin olunması, yeni məktəb binaları və mehmanxanaların tikilməsi, park və istirahət guşələrinin salınması yerinə yetirilmişdir. Belə geniş miqyaslı planların həyata keçirilməsi muxtar respublikanın dinamik inkişafını başa çatdırmağa, sosial problemlərin həllinə imkan vermişdir.

Bu vilayət çox qədim mədəniyyəti, füsunkar təbiəti ilə məşhurdur. Təbiətin bütün gözəlliklərini və rənglərini burada görmək mümkündür. İki dağı belə bir-birinə oxşar görə bilməzsən, çünki hər gülün, çiçəyin də öz rəngi, öz ətri var. Elə əfsanəvi sıldırım qayalar, qədim mədəniyyət abidələri qorunub saxlanılıb ki, baxan insanı valeh etməyə bilmir. Gəmiqayadakı qədim mədəniyyət abidələrinin dünyada tayı-bərabəri yoxdur. Alim-arxeoloqlar mindən çox qayada qədim şəkillər aşkar etmişlər. Bura həm də, şəfa ocağıdır, müqəddəs yerləri ilə insanların köməyinə çatır. Əshabi-Kəf kimi şəfa ocağı buna əyani misaldır. Elə götürək adi daş duzla müalicəni, yaxud Badamlı və Sirab mineral sularını. Bunlar min bir möcüzə, sirr deyilmi?! Uzun illər mədə-bağırsaq xəstəliklərindən əzab çəkən xəstələr öz dərdinə burada əlac tapa bilir. Qədim Ordubadın dadlı və şirin meyvələri də bütün dünyada məşhurdur.

Naxçıvan MR həm də qədim memarlıq diyarı kimi şöhrət qazanmışdır. Bu memarlıq abidələri bu gün də nadir inci kimi qorunub saxlanılır. Naxçıvanın Xan evi kompleksi, məşhur memar Əcəmi İbn Əbubəkrin inşa etdiyi Yusif ibn Küseyir və Mömünə Xatın türbələri bu diyara böyük şöhrət gətirmişdir. Əmirəddin Masul Naxçıvanski, Əhməd ibn Əyyub əl Hafizi, şeyx Cuxanan, Cəmaləddin Naxçıvani kimi şöhrətli memarların adı dillər əzbəridir. Gülüstan türbəsi keçmişimizdən bu günümüzə boylanan bir abidədir. Zəngin memarlıq üslubu ilə seçilən Gülüstan türbəsi bu gün sərhəd zolağında sanki torpağımızın keşiyində durub.

Naxçıvan həm də böyük şəxsiyyətlər yetişdirmişdir. Əsrin görkəmli şəxsiyyəti, dünya siyasətində özünə yer tutan ümummilli liderimiz Heydər Əliyev kimi diplomat, siyasi xadim, XX əsrin Atatürkü bu torpaqda böyüyüb başa çatmışdır. Siyasi xadimlərimiz Əziz Əliyev, Hüseyn Məmmədov, Məmməd Əsgərov, Səkinə Əliyeva, Məmməd Mirəziz oğlu Seyidov, Afiyəddin Cəlilov və digərləri məhz Naxçıvan torpağında doğulmuşlar.

Naxçıvan həm də görkəmli hərbi sərkərdələr yetişdirmişdir: general Cəmşid Naxçıvanski, general-mayor Bahadur Hüseynov, vitse-admiral Həmid Qasımbəyov, Milli Qəhrəman Məhərrəm Seyidov, general Akim Abbasov, öz həyatını Azərbaycanın suverenliyi və azadlığı uğrunda qurban vermiş Riyad Əhmədov kimi hərbçilər bu torpağın tarixinə qızıl hərflərlə yazılmışlar.

Elmin inkişafında öz bilik və səylərini əsirgəməyən və onun inkişafına əvəzsiz töhfələr verən Yusif Məmmədəliyev, H.M.Abdullayev, E.Y.Salayev, M.T.Abutalıbov, M.D.Cəfərov, D.A.Əliyev, Z.A.Əliyev, görkəmli yazıçı və şairlərdən M.S.Ordubadi, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məmməd Araz, Hüseyn İbrahimov, Hüseyn Razi, İslam Səfərli, Əkrəm Əylisli Naxçıvan torpağının yetirməsidir.

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilən Azərbaycanın ilk Konstitusiyasına əsasən, Naxçıvan Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Yuxarıda qeyd olunduğu kimi, Naxçıvan Muxtar Respublikasının əsl inkişafı 1969-cu ildən başlanmışdır. O vaxtdan ötən 40 il ərzində muxtar respublikada bütün sahələrin, eləcə də aqrar-sənaye kompleksinin sürətli tərəqqisinə nail olunmuşdur.

Azərbaycan müstəqillik əldə etdikdən sonra başqa respublikalardan daha tez bir zamanda iqtisadi inkişaf yoluna qədəm qoyması məhz 70-80-ci illərdə yaradılmış möhkəm iqtisadi bazanın əsasında mümkün olmuşdur. Naxçıvanın bir muxtar respublika kimi çiçəklənməsində Heydər Əliyevin misilsiz xidmətləri danılmazdır.

Bu gün Naxçıvan Muxtar Respublikası möhtərəm Heydər Əliyevin işləyib hazırladığı layihə əsasında əsl inkişaf, yüksəliş yolundadır. Burada böyük abadlıq və quruculuq işləri gedir. Hər il onlarca yeni sosial təyinatlı obyekt istifadəyə verilir.

Muxtar respublikada təhsilə qayğı daim diqqət mərkəzindədir. Bu gün Naxçıvanda 33 orta ümumtəhsil məktəbi, 970 axşam məktəbi, AMEA-nın Naxçıvan filialı, 5 institut, müəllimlər institutu, musiqi orta ixtisas məktəbi, özəl universitetlər, kolleclər, 40-dan çox məktəbdənkənar müəssisə, 90 uşaq bağçası, müstəqil hərbi lisey və s. fəaliyyət göstərir.

Möhtərəm Heydər Əliyev Milli Ordunun yaranması, milli zabit kadrların yetişdirilməsi üçün çox işlər görüb. O demişdir: "Azərbaycanın ordusu günü-gündən güclənməlidir və orduda qulluq edən, vətəni müdafiə edən hər bir vətəndaş, hər bir gənc bizim üçün əziz, qiymətli və dəyərlidir". Çox çətinliklə də olsa, C.Naxçıvanski adına Hərbi Məktəbi Azərbaycana gətirən Heydər Əliyev Naxçıvan MR-in düşmənlə üzbəüz olduğunu nəzərə alaraq burada həmin hərbi məktəbin filialını yaratdı. Filialın

fəaliyyətə başladığı ilk gündən bu təhsil ocağına diqqət və qayğı göstərilmişdir. Məktəbdə yataqxana, yeməkxana, yeni tədris korpusları tikilib. 21 sinif, 2 kömpüter otağı, kimya laboratoriyası, kitabxana, hərbi-hazırlıq və ədəbiyyat fənn kabinələri kursantların ixtiyarına verilmişdir. Hazırda 22 zabit və gizir heyəti, 36 müəllim təhsil alan 444 kursantın gələcəkdə layiqli Vətən oğulları kimi yetişməsi üçün əllərindən gələni əsirgəmir. Onlar Vətənimizin, dövlətimizin gələcəyi üçün öz məsuliyyətlərini yaxşı başa düşən, hərbi işə qəlbən bağlı olan vətənpərvər gənclərdir.

"Sağlam bədəndə, sağlam ruh olar" - deyib atalarımız. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi dövründə səhiyyənin inkişafına ciddi fikir verilmişdir. Yada salaq ki, səhiyyə haqqında ilk qanun məhz 1969-cu ildə respublika Ali Sovetinin 7-ci sessiyasında qəbul edilmişdi. Naxçıvanda səhiyyə 70-ci illərə qədər yarıtmaz vəziyyətdə olub. Məhz 1969-cu ildə qəbul edilmiş qanuna əsasən muxtar respublikanın bir sıra rayon və kəndlərində yeni tibb məntəqələri yarandı, xəstələr müasir şəfa ocaqlarına köçürüldü, xidmət yaxşılaşdı. Məsələn, 1972-ci ildə Culfa rayonunda 120 çarpayılıq xəstəxana, 1971-ci ildə Badamlı Mineral Sular Zavodu bazasında 50 çarpayılıq xəstəxana tikildi, psixo-nevroloji dispanserdə çarpayıların sayı 25-dən 50-yə çatdırıldı. 1973-cü ildə isə Naxçıvan şəhərində 25 çarpayılıq endokrinoloji dispanser fəaliyyətə başladı. 1987-ci ildə Ordubad rayonunda 150 çarpayılıq yeni tipli xəstəxana, Şərurda əlavə 25 çarpayılıq travmatoloji şöbənin yaradılması, Naxçıvan duz mədənində fizioterapiya xəstəxanası, Naxçıvan şəhərində təcili tibbi yardım stansiyası inşa edilib istifadəyə verildi. Eləcə də Naxçıvanda 100 çarpayılıq respublika onkoloji və kardioloji dispanserlərin yaradılması da məhz Heydər Əliyevin adı ilə bağlıdır.

1987-ci ildə yeni layihə əsasında tikilmiş gözəl, yaraşıqlı 500 çarpayılıq N.Nərimanov adına Naxçıvan Respublika Xəstəxanası istifadəyə verilib.

1999-cu ildə 30 min ABŞ dolları dəyərində vərəmə qarşı spesifik dərman preparatları alındı və müasir tipli rentgendiaqnostik aparat istifadəyə verildi.

Uzun illər Naxçıvan MR-in həkimləri Bakıya və xarici ölkələrə təkmilləşmə kursuna gedə bilmirdilər. Blokada buna imkan vermirdi. 1998-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun professor-müəllim heyəti tərəfindən Naxçıvanda cərrahiyyə, terapiya, pediatriya, travmatologiya, ortopediya, yoluxucu xəstəliklər üzrə səyyar kurslar təşkil edildi. Bu, Naxçıvan tibb işçilərinin səviyyəsinin yüksəldilməsində böyük əhəmiyyət daşıyır.

Naxçıvan MR-ə çox vacib olan hemodializ aparatının alınması, Naftalan müalicə şöbəsinin istifadəyə verilməsi, Duzdağda xəstəxananın yenidən fəaliyyətə başlaması və çoxsaylı müasir avadanlıqların gətirilməsi, eləcə də səhiyyə ocaqlarında pullu xidmətin ləğvi hər bir ailənin sevincinə səbəb olmuşdur.

Naxçıvanlılar buna görə dövlətimizin başçısına hədsiz minnətdardırlar. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi dövründə Naxçıvan MR-in bütün rayonları öz simasını dəyişmiş və inkişaf yoluna qədəm qoymuşdur. Heydər Əliyev hələ 70-ci illərdə Sədərəyin - Ermənistanın lap yaxınlığında yeni qəsəbənin salınması ideyasını irəli sürmüş və bu barədə xüsusi tapşırıq vermişdi. Sədərəklilər haqlı olaraq Heydər Əliyevi Sədərəyin həm qurucusu, həm də xilaskarı adlandırırlar. Hələ o vaxt Heydərabad qəsəbəsində 75 yaşayış binası tikildi və istifadəyə verildi və bu gün bu qəsəbə şəhərə bənzəyir.

Sədərəkdə su problemini həll etmək üçün Prezidentin sərəncamı əsasında 24 milyard manat ayrıldı və su nasosları quraşdırıldı ki, bunun köməyilə 3 min hektar sahə suvarılır. Qısa müddət ərzində Sədərəkdə İcra hakimiyyəti üçün bina "Heydər parkı", "Heydər bulağı", yeni tikiş fabriki, çoxlu inzibati binalar, qəsəbə və orta məktəbləri, rabitə evi salındı, küçələrə su

çəkildi, artezian quyuları istifadəyə verildi.

Şərur rayonunda da son illər tikinti-quraşdırma işləri geniş vüsət almışdır. Kəndlərdə yeni məktəb binaları istifadəyə verilib. Son illərdə rayonun Axaməd, Alışar, Arbatan, Kərimbəyli, Həmzəli, Xanlıqlar, Qabıllı, Yeni Havuş kəndlərində artezian quyuları vurulmuş, əhalinin suya olan tələbatı yaxşılaşmışdır. O cümlədən bir rayon, 12 kənd xəstəxansı, 14 həkim laboratoriyası, 144 feldşer-mama məntəqəsi insanların ixtiyarına verilmişdir.

Ümummilli liderimizin atalıq qayğısı ilə ölkədə elan olunan pilot səhiyyə rayonları sırasında Şərur da vardır. Bu məqsədlə bir milyon dollar vəsait ayrılmış, islahat proqramına əsasən 11 yerdə sağlamlıq mərkəzi təşkil olunmuşdur.

Şahbuz rayonunda da son illər tikinti-abadlıq işləri sürətlə həyata keçirilir. Burada 23 kənd və 2 qəsəbə vardır, rayonda heyvandarlığın inkişafına xüsusi diqqət yetirilir. Şahbuz arıçılarının sədası hər yanda eşidilir.

Son ildə Şadada 190, Türkeşdə 120, Biçənəkdə 320, Keçilidə 504, Gülüsdə 318 yerlik məktəb binaları tikilib istifadəyə verilib. Badamlı Mineral Zavodu gün ərzində 30 min butulka su istehsal edir.

Bundan başqa, Turşsu müalicə bulağı insanların xidmətindədir. Yeni iş yerləri açılır. Tikiş sexində 50-dən çox işçi çalışır.

Naxçıvanın digər rayonlarında olduğu kimi, Ordubadda da konserv zavodunun, ipək fabrikinin və baramaçılıq fabriklərinin işə düşməsində ulu öndərimizin böyük zəhməti olub. Rayonda meyvə-bağçılığın inkişafına daha çox üstünlük verilir. Hörmətli Prezidentimizin sərəncamı ilə Ordubad rayonu yeni su nasosları ilə təmin edilib ki, bu da 12131 hektar meyvə bağlarını suvaracaqdır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının yerinə yetirilməsində MR ardıcıl tədbirlər planı həyata keçirir. MR-də 30 yeni məktəb tikilib, 200-dən artıq məktəb

yenidən əsaslı təmir olunub, yeni inzibati binalar tikilib. Aviakassa, Aeroport, Diaqnostika Mərkəzi, qaçqın, şəhid və əlillər üçün şəxsi binalar, yeni səhiyyə ocaqları, mədəniyyət abidələri inşa olunub. Naxçıvan şəhəri tam görkəmini dəyişib, yollar abadlaşdırılıb, körpülər salınıb. İcra hakimiyyəti üçün dünya standartlarına uyğun yeni binalar ucaldılıb. Ali təhsil ocaqları yeni görkəm alıb, yeni mebel və kompüter avadanlıqları ilə təmin edilib. Bu gün sevinirik ki MR-in orta məktəblərində kompüter otaqları və kompüter dəstləri şagirdlərin ixtiyarına verilib.

MR bu gün də Milli dövlət quruculuğu prosesinin fəal iştirakçısıdır. respublikamızın iqtisadi qüdrətinin artırılması və intellektual potensialının gücləndirilməsində öz dəyərli töhfələrini verir.

Ümummilli liderimiz Heydər Əliyev Naxçıvanı "Azərbaycanın incisi" adlandırmışdır. Ulu öndər Heydər Əliyevin arzuları və ideyaları bu gün Naxçıvan MR-da ləyaqətlə yerinə yetirilir.

85 illik yubileyini təntənə ilə qeyd edən Naxçıvan Muxtar Respublikası bu gün sözün həqiqi mənasında öz simasını büsbütün dəyişib, gözəlləşib. Naxçıvanlılar əmindirlər ki, ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyevin səyləri nəticəsində bu qədim və zəngin diyar, nəhayət ki blokada vəziyyətindən qurtulacaq və Azərbaycanın ən inkişaf etmiş regionlarından birinə çevriləcəkdir.

## NAXÇIVAN – QOCA ŞƏRQİN QAPISI

***Şərqin ən qədim sivilizasiya məskənlərindən olan Azərbaycan ərazisi arxeoloji abidələrlə zəngindir. Burada ən qədim insanlar yaşamış və özlərinin maddi mədəniyyət nümunələrini yaradıblar. Azərbaycanın belə bir diyarlarından biri də ən qədim Naxçıvan şəhəri olub. Burada aşkar olunan Qazma mağarası (Şərur rayonu) göstərilir ki, bu diyarda ən qədim insanlar yaşayıb və özlərinin tarixi izlərini qoyublar.***

Sonrakı eneolit və tunc dövründə burada daimi ardıcıl həyat tərzi olub. Tunc dövründə sənətin müxtəlif sahələrinin inkişafı ilə əlaqədar bu şəhər Şərqin mühüm sənət və ticarət mərkəzlərindən birinə çevrilib. Ərazidə sənətin müxtəlif sahələri-dulusçuluq, memarlıq, toxuculuq, zərgərlik, ağac emalı kimi sahələri geniş inkişaf edib. Bütün bunlar da Naxzçıvan şəhərinin və onun əhatə etdiyi ərazidə daxili və xarici ticarətin inkişaf edib genişlənməsində böyük rol oynayıbdır. Aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi mədəniyyət əşyaları göstərir ki, Naxçıvan ərazisi qədim Şərq ölkələri olan İkiçayarası, Assuriya, Misirlə sıx ticarət əlaqələrində olub. Bütün bu iqtisadi ticarət əlaqələri şəhərin daha da inkişaf etməsində mühüm rol oynayıb. Bunu həm də şəhərin memarlıq tikililərinin üslubunda da aydın görmək olar. Şəhərin və onun ətrafında olan yaşayış məskənlərinə, Şərq ölkələrinə xas olan memarlıq nümunələri böyük təsir göstərib

***Antik dövrdə Naxçıvan şəhəri Azərbaycanın Şərq dünyası ilə əlaqələrində daha önəmli rol oynayıb. Şəhərin adı həm yunan Roma, həm də orta əsrlər dövrünün yazılı mənbələrində geniş əks olunub.***

Qədim yunan coğrafiyası Ptolomeyin xəritəsində antik dövrdə Azərbaycanda 29 yaşayış məskəninin adı çəkilib. Onların arasında Naxçıvan şəhəri «Naksuana» kimi qeyd olunub.

Naksuana sözünü tədqiqatçılar «Şirin sular» məskəni kimi qiymətləndiriblər. Görünür o zaman şəhər özünün mədən suları ilə həm Şərqdə, həm də yunan dünyasında tanınıb.



Makedoniyalı İskəndərin Şərqə yürüşündən sonra ellinizm başqa ölkələr kimi Azərbaycana, habelə onun qədim diyarı olan Naxçıvana da hərtərəfli təsir göstərib. Daha doğrusu, şəhər ellinizm dünyası ilə bağlı olub. Bunu şəhərin ətrafından, o cümlədən Qarabağlardan (Şərur rayonu), Xaraba Gilandan (Ordubad raoynu) tapılan Makedoniyalı İskəndərin, habelə Sələvki hökmdarlarının pulları da aydın göstərir. Naxçıvan şəhərinin ellinizm dünaysı ilə əlaqələrində heç şübhə yoxdur ki, onun coğrafi mövqeyi, tunc dəmir dövründə mövcud olmuş ticarət yolları da mühüm rol oynayıb. Həmin ticarət yolları antik dövrdə Naxçıvanı həm Təbriz, həm də İkiçayarası, Aralıq dənizi və Qara dəniz sahili ölkələrilə də sıx əlaqələndirilib və birləşdirilib. Məlumdur ki, o zaman Şərqlə Qərbi birləşdirən «Böyük İpək yolu həm su, həm də quru yollarından ibarət olub. Yolun quru hissəsi Orta Asiyadan Parfiya vasitəsilə Atropatenaya, oradan da Təbriz, Ərdəbil və Naxçıvan vasitəsilə müxtəlif istiqamətlərə doğru genişlənmişdir». İpək yolunun bir hissəsi Qazaka-Naxçıvan vasitəsilə də daha işlək olub. Bunu antik müəlliflərdən Strabon, romalı tarixçi Böyük Pliniyin məlumatları da aydın göstərir. Onların

məlumatlarından aydın olur ki, antik dövrdə Naxçıvan şəhərinin həm Qərb, həm də Şərq dünyası ilə bağlı olmuş sıx iqtisadi mədəni cəhətdən bağlılığı olub. Bütün bunlar da şəhərin iqtisadi, mədəni cəhətdən inkişaf etməsində böyük rol oynayıb.

***Antik dövrdə Azərbaycan, o cümlədən Naxçıvan şəhəri də zəngin təbii sərvətlərə malik olub, bu regionda istehsal olunmuş sənət şeyləri də Şərq və Qərb dünyasında şöhrət qazanıb. Bunu antik müəlliflərin Azərbaycanın şəhərləri, əkinçiliyi, maldarlığı, dəvəçiliyi haqqında olan məlumatları da aydın göstərir. İstehsal olunan balıq, balıq məhsulları, ipək parçaları, duz məhsulları (Naxçıvan şəhəri), bəzək əşyaları (Təbriz, Ərdəbil) nəinki Şərqdə, həm də yunan-Roma dünyasında tanınmış və orada geniş ticarət əlaqələrində istifadə olunub. Romalı tarixçi Böyük Pliniyin məlumatlarından aydın olur ki, bu zaman Azərbaycanda istehsal olunan ipək parçalar Yunanıstanda olan Mileet yunundan geri qalmayıb. Bəzi keyfiyyətlərinə görə ondan da üstün olub. Məlumdur ki, Naxçıvan ərazisi qədim zamanlardan mineral suyu və duz mədənləri ilə zəngin olub. Ola bilsin bu cür strateji məhsullar da antik və orta əsrlərdə yerli əhalinin tələbatını ödədikdən qalan hissəsi satılmaq üçün yaxın və uzaq ölkələrə aparılıb. Bu cür əhəmiyyətli məhsullar həmçinin şəhərin Yaxın Şərq ölkələrində tanınmasında mühüm rol oynayıb***[7].

Yazılı və arxeoloji mənbələrdən aydın olur ki, antik və erkən orta əsrlərdə Naxçıvan şəhəri və onun ərazisinin Roma dünyası, Şarmat-alanların Azərbaycanla düşmənçilik münasibətləri olmayıb. Bu da göstərir ki, antik dövrdə alanların Mingəçevir və Naxçıvan şəhərləri ilə iqtisadi-ticarət əlaqələri olub. Parfiya dövləti Azərbaycanın cənub hissəsini ələ keçirmək uğrunda mübarizə etdiyi bir vaxtda qonşuluqda Şimali Qafqazda yaşayan Alanların tez-tez hücumuna məruz qalıb. Bu hücumlar çox təhlükəli olduğundan parfiyalılar romalılarla uzun müddət davam edən aramsız müharibələri

dayandırıb sülh müqaviləsi imzalayıblar. Məhz bu dövrdə Alanların Azərbaycanla, o cümlədən Naxçıvanla əlaqələri yaranıb. Bunu Alanlara məxsus qəbirlərin Mingəçevir və Naxçıvandan aşkar olunması da aydın göstərir. Həmin qəbirlərdən müxtəlif formalı Sarmat-Alan silahları və bəzək əşyaları aşkar edilib. Əslində o zaman Albanlarla müttəfiq olan Sarmat-Alanların Azərbaycanla düşmənçilik münasibətləri olmayıb. Bu da onu göstərir ki, antik dövrdə Alanların Mingəçevir və Naxçıvan şəhərləri ilə iqtisadi-ticarət əlaqələri olub.

Naxçıvanın təbii sərvətləri o zaman uzaq Roma dünyasının və xilafətin də nəzər diqqətini cəlb edib. Onlar hər vasitə ilə strateji mövqeyinə görə Naxçıvan şəhərini ələ keçirməyə çalışıblar. Məhz belə bir şəraitdə Parfiya və Roma pulları Naxçıvan ərazisinə daxil olub. Onların içərisində daha çox Parfiya hökmdarlarının, qismən də olsa Roma solidlərinə də rast gəlirik. Naxçıvan ərazisində aşkar olunan Parfiya hökmdarlarının pullarının çoxu da (II Mitrdat Qotarz və başqaları) o zaman Parfiyanın ən böyük şəhərlərindən biri olan paytaxtı Ekbatana şəhərində kəsilib.

*Erkən orta əsr ərəb mənbələrində Naxçıvan şəhri ilə bağlı çox maraqlı məlumatlar var. Ən çox maraqlı məlumatlara Abu-Dilafın «Tarixi qeydlər»ində rast gəlirik. Onun məlumatları daha çox inandırıcıdır. O, məlumatdan aydın olur ki, onun özü şəxsən Təbrizdən gələrkən Naxçıvanda olub və oranın müalicə və mədən suları ilə şəxsən özü tanış olub. O, yazır ki, biz gəlib Naxçıvan yaxınlığında bir Darıdağ gölü sahilində dayandıq, yerli əhali buranı dəri xəstəliyinin müalicə olunduğu yer adlandırırdı. Məni səfərdə müşahidə edən şəxs heç bir məhəl qoymadan paltarını çıxarıb, həmin göldə çimdi və biz bir az getdikdən sonra onun dərisində olan xəstəlik, o cümlədən qoturluq xəstəliyi tamamilə sağaldı*[10].

Naxçıvan şəhərinin xilafət dünyası daha canlı əlaqəsini göstərən ən möhtəşəm abidə müqəddəs Əshabu-Kəf abidəsidir. İslamın müqəddəs kitabı olan Qurani-Kərimdə adı

çəkilən bu müqəddəs yer Naxçıvan şəhərini nəinki ərəb dünyasında, habelə Qərb dünyasında tanıtmışdır[11]. İnsanların daima ziyarətgahına çevrilmiş bu yer onu göstərir ki, şəhər İslam dünyasının mühüm dini mərkəzlərindən biri olmaqla, onlarla sıx bağlı olub. Sonrakı dövrlərdə Naxçıvan şəhri Azərbaycanın xarici dövlətlərlə iqtisadi, ticarət əlaqələrində mühüm rol oynayıb. Bu cür təbii sərvətlərə, strateji mövqeyə malik Naxçıvan şəhərini daima yadelli işğalçılar, bədnam qonşular ələ keçirməyə çalışıblar. Hələ 1914-1918-ci illərdə Antantanın «Naxçıvan» mandatı olub və bu şəhəri ələ keçirməyi planlaşdırıblar. Lakin onlar buna nail ola bilməyiblər.

Uzun müddət bədnam qonşularımız olan ermənilər bu şəhər haqqında ərazi iddiaları irəli sürüblər. Bu ideya 1991—ci il SSRİ dağıldıqdan sonra onlar tərəfindən daha da yayılıb. Lakin o, ideyanın heç bir hüquqi əsası olmayıb və olmayacaq. Naxçıvan şəhəri antik dövrdə olduğu kimi bu gün də Azərbaycanın ən mühüm sənət, elm və mədəniyyət mərkəzlərindən biridir. Naxçıvan həmişə Azərbaycanın Şərqə çıxış qapısı olub və bu gün də Şərqlə, o cümlədən İran və Türkiyə ilə əlaqələrində önəmli rol oynayır.

**İbadulla MƏMMƏDOV**
*ADPU-nun dosenti,*
**Hacı Tofiq SEYİDOV**
*ADPU-nun dissertantı*

# 2008-ci İLDƏ AMEA-nın NAXÇIVAN BÖLMƏSİNİN FƏALİYYƏTİ UĞURLU OLUB

*«Elm cavanlara kapital, yoxsullara dövlət, qocalara təsəlli, yaşlılara isə yaraşıq verir...»*



Naxçıvan torpağı qədim tarixə və zəngin təbii ehtiyatlara malik olmaqla, coğrafi siyasi mövqeyinə görə Azərbaycanın ən mühüm strateji bölgələrindən biridir.

2008-ci ildə Azərbaycan AMEA-nın Naxçıvan bölməsinin respublikanın mühüm sosial-iqtisadi və ictimai-siyasi-mədəni məsələlərin həlli üçün hazırlanmış AMEA-nın Rəyasət Heyəti tərəfindən təsdiq edilmiş proqram çərçivəsində gördüyü işlər barəsində məlumat almaq üçün bölmənin sədri, akademik İsmayıl Hacıyevə müraciət etdik:

- 2008-ci ildə AMEA-nın Naxçıvan bölməsinin tərkibində fəaliyyət göstərən 6 elmi-tədqiqat institutunda (Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, Təbii Ehtiyatlar, Bİoresurslar İnstitutu, Əlyazmalar Fondu və Batabat Astrofizika Rəsədxanası) 6 elmi istiqamətdə 6 problemi əhatə edən 7 mövzuya yaxin olan 35 işin 97 mərhələdə yerinə yetirilməsi planlaşdırılmışdı. Xatırladım ki, AMEA-nın Naxçıvan bölməsi bu və ya digər məsələlərlə bağlı Naxçıvan MR Ali Məclisinin və Nazirlər Kabinetinin, AMEA-nın Rəyasət Heyətinin verdiyi qərar və sərəncamları layiqincə yerinə yetirib. 2008-ci ildə AMEA-nın Naxçıvan bölməsi 18 qərarı, 7 sərəncamı qəbul edib.

- İsmayıl müəllim, 2008-ci ildə sizin bölmədə elmi-tədqiqat işləri necə yerinə yetirilib?

- 2008-ci ildə Naxçıvan bölmə əməkdaşlarından 2 nəfər AMEA-nın həqiqi üzvü, 5 nəfər AMEA-nın müxbir üzvü, 6 nəfər elmlər doktoru, 22 nəfər elmlər namizədi, 24 nəfəri aspirant və 33 nəfər dissertant elmi-tədqiqat işlərinin aparılmasında iştirak edib. Ötən ildə bölmənin 6 elmi-tədqiqat institutunda 20 şöbə və 8 laboratoriya tədqiqat işləri ilə məşğul olub. Ötən ildə Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutları Naxçıvanın tədqiqi istiqamətində 15 mərhələdə tədqiqat işləri aparıb (burada 20 elmi işçi çalışıb). Tədqiqat zamanı akademik İ.Hacıyevin rəhbərliyi altında Naxçıvan xanlığının Azərbaycanın dövlətçilik tarixində yeri tədqiq edilərək onun zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan tarixində mühüm rol oynadığı qeyd olunub. Əməkdaşlarımız tərəfindən arxiv sənədləri əsasında Naxçıvan xanlığının Rusiya tərəfindən işğalı və Türkmənçay sülh müqaviləsinə dair gizli danışıqlar geniş şəkildə öyrənilib. Ermənistanın Naxçıvanla bağlı uydurmalı iddialarının beynəlxalq müstəvidə yeri təhlil edilib. «Naxçıvan abidələri» ensiklopediyası adlı kitab işıq üzü görüb. Bu ensiklopediyada Naxçıvanın qədim yaşayış yerləri, arxeoloji tarixi, memarlıq və təbiət abidələri, maddi mədəniyyət nümunələri, körpülər, qalalar, ziyarətgahlar, pirlər haqqında ətraflı məlumat toplanıb. Bir sözlə, ensiklopediyada 231 arxeoloji abidə, 13 tarixi abidə, 50 memarlıq abidəsi, 22 monumental sənət abidəsi, o cümlədən 5 tarixi xəritə, 21 tarixi abidənin plan layihəsi, 832 şəkil verməklə 600-ə qədər məqalə işlənib hazırlanıb Bundan başqa, institut əməkdaşları «Naxçıvanın tarixi atlası»nın hazırlanmasını uğurla başa çatdırıb. 2008-ci ildə bir sıra xarici ölkə və yerli elmi-tədqiqat mərkəzləri ilə institut əməkdaşlarının birgə yeni və perspektivli tədqiqatların təşkil edilməsi istiqamətində diqqətəlayiq nailiyyətlər əldə edilib. Belə ki, institutun əməkdaşı, müxbir üzvü V.Baxşəliyev ABŞ-ın Corciya Universitetinin bir qrup əməkdaşı ilə Oğlanqalada,

həmçinin Fransa Beynəlxalq Araşdırmalar Mərkəzinin əməkdaşları ilə Ovçular təpəsində və Duzdağ ərazisində apardığı arxeoloji araşdırmalar nəticəsində dəyərli tarixi faktlar aşkar edilib. İncəsənət, dil və ədəbiyyat sahəsində də əməkdaşlarımız – 22 elmi işçimiz tədqiqat işlərini uğurla başa vurubdur. Tədqiqat zamanı 1920-1950-ci illərdə Naxçıvanda yaşayıb-yaratmış rəssamların, teatr sənətkarlarının, musiqi xadimlərinin, Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yubileyinə aid materiallar hazırlanıb Naxçıvan MR Ali Məclisinə təqdim edilib. Əməkdaşlarımız tərəfindən 2008-ci ildə Ordubad, Şahbuz, Culfa, Babək – bütün Naxçıvan dialekt və şivələrinin, ədəbi dil tariximizin öyrənilməsi baxımından bir sıra araşdırmalar aparıblar. Nəticədə «Naxçıvan dialekt və şivələrinin lüğəti» adlı kitab çapa təqdim edilib. Hal-hazırda «Naxçıvan MR-in oronimləri» adlı kitab üzərində iş gedir. Tədqiqat ilində Naxçıvan ədəbi məktəbinin yetirmələri olan böyük publisist və görkəmli ictimai xadim Məhəmmədağa Şahtaxtinski, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, akademik M.Cəfər Cəfərovun haqqında toplanmış fakt və materiallar dəqiq araşdırılıb. Əməkdaşlarımız tərəfindən hazırda «Hüseyn Cavid ensiklopediyası» adlı kitab üzərində iş aparılır. Ümumiyyətlə, 2008-ci ildə İnstiutut əməkdaşlarının 180 elmi əsəri, o cümlədən 4 kitabı işıq üzü görüb. Ötən ildə İnstitut əməkdaşlarından Ə.A.Quliyev və t.e.d. M.A.Cəfərli professor adına, həmçinin f.e.d. M.A.Cəfərli «Türk dünyası kültürü və folkloruna xidmət mükafatı»na layiq görülüb ki, biz hamımız buna sevinirik. Onu da qeyd etməliyik ki, ötən ildə institutun 4 əməkdaşı bir neçə dissertasiyaya rəhbərlik edib və opponentlik edib, kitab, monoqrafiya, avtoreferat, doktorluq və namizədlik dissertasiyasına rəsmi rəy yazıblar. Nəticədə 1 nəfər namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib, 1 nəfərin dissertasiya işi müdafiəyə buraxılıb, 1 nəfər aspiranturaya qəbul olunub, 2 nəfərin işi doktorluq dissertasiya mövzusu kimi təsdiq edilib.

- İsmayıl müəllim, bölmənin başqa ali təhsil ocaqları ilə ədaqəsi necədir?

- İnstitutun elmi əməkdaşları (Dil, Ədəbiyyat, İncəsənət İnstitutları) AMEA-nın Folklor İnstitutu, Ədəbiyyat İnstitutu, İncəsənət və Memarlıq İnstitutu, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı Dövlət Universiteti, NDU, Ankara şəhərində fəaliyyət göstərən Qazi Universiteti, Qarsdakı Qafqaz Universiteti və digər elmi müəssisələrlə yaxşı əlaqələr yaradıb, səmərəli əməkdaşlıq edirlər.

- Hesabatımızdan bizə məlum olur ki, uğurlar çoxdur. Bəs sizin bölmədə elmi kadrların hazırlanması barədə nə kimi işlər görülür?

- Tədqiqat ilində AMEA-nın Naxçıvan bölməsində 21 nəfər işə götürülüb. Bölmədə 270 nəfər əməkdaş çalışır ki, onlardan 95-i elmi işçi, 14-ü laborantdır.

Bu gün bölmə əməkdaşlarından 10-u namizədlik dissertasiyası müdafiə edib, 2 nəfərin namizədlik dissertasiyası müzakirədən keçib və müdafiəyə buraxılıb. Bundan başqa, 2 nəfər aspiranturaya qəbul olunub, 5 nəfərin doktorluq, 10 nəfərin namizədlik dissertasiya mövzusu təsdiq edilib. Hal-hazırda bölmədə 30 aspirant və 48 dissertantımız var. Bölmədə 7 nəfərdən ibarət Dissertasiya Şurası üzvü var.

- Bölmənin əməkdaşları hansı simpozium və elmi beynəlxalq konfranslarda iştirak ediblər?

- Ötən ildə bölmənin 16 əməkdaşı xarici ölkələrdə keçirilən (Novosibirsk, Qars, Təbriz, Şanhurfa, Qahirə, Aşqabad, Həştərxan, Ağşehir, Turin, Daşoğuz, Uəzd, İsfahan, Rize, Ankara, Burdur şəhərlərində) 18 beynəlxalq səviyyəli simpozium və konfransda məruzələrlə çıxış ediblər. Bundan başqa, YAR Siyasi Şurasının üzvü, millət vəkili, s.e.n. Aydın Mirzəzadə Misir Ərəb Respublikasının və Rusiya Federasiyasının Assambleyasındakı səfirlər Yusif Əhməd Əl-Şarkavi, Vasili İstratov, məşhur tədqiqatçı R.N.İvanov, Fransa Beynəlxalq Araşdırmalar Mərkəzinin və ABŞ-ın Corciya Universitetinin əməkdaşları Naxçıvan bölməsində olublar.

- Bölmənin maddi-texniki bazasının möhkəmlənməsi üçün nə kimi tədbirlər görülüb?

- İl ərzində bölmədə mövcud cihaz və avadanlıqların təkmilləşməsini davam etdirmişik, ayrı-ayrı bölmələr üzrə 12060 m dəyərində 11 kompüter dəsti, həmçinin Seysmoloji Mərkəzin fəaliyyəti üçün 2441 m dəyərində foto kağız və kütləvi reaktiv «Tusi» nəşriyyatına 1199 m üzlük kağız, tormoyapışqan, master plyonka və rizoqraf üçün boya, bölmənin akt zalı üçün 1707 m dəyərində 2 ədəd kondinsioner alınıb. Ötən ildə 7853 m dəftərxana və cari material alınmasına vəsait köçürülüb və xərclənib. Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən 7 kompüter dəsti hədiyyə olunub. Elmi kitabxanaya ötən il 32009 ədəd yeni kitab daxil olub. Türkiyədən türk və ingilis dilində 118 ədəd kitab, 26 ədəd jurnal, 5000-dək ədəbiyyat, elektron kataloqlaşdırılıb. İnanırıq ki, AMEA-nın Naxçıvan bölməsi 2009-cu ildə də yuxarıda qeyd olunan uğurlardan daha çox önəmli işlər görəcək.

## AKADEMİK HƏSƏN ABDULLAYEVİN 90 İLLİK YUBİLEYİ QEYD OLUNMUŞDUR




2008-ci ildə AMEA-nın Rəyasət Heyətinin iclas zalında SSRİ EA-nın müxbir üzvü, 13 il AMEA-nın prezidenti kimi fəaliyyət göstərmiş akademik Həsən Məmmədbağır oğlu Abdullayevin 90 illik yubileyi keçirilimşdir.

Tədbiri giriş sözü ilə AMEA-nın prezidenti akademik Mahmud Kərimov açmışdır. O qeyd etmişdir ki, akademik Həsən Abdullayev Azərbaycan elminin tarixində iki böyük məktəbin yüksək texnologiyaların əsası olan yarımkeçiricilər fizikası və elmi təşkilatçılıq məktəbinin yaradıcısıdır. Həsən Abdullayev görkəmli Azərbaycan alimi və ictimai xadimi, SSRİ EA-nın müxbir üzvü, əməkdar elm xadimi, uzun illər Az.EA-nın prezidenti (1970-1983), Fizika İnstiutunun direktoru, nəhəng elmi və elmi-təşkilatçılıq fəaliyyəti ilə Azərbaycan elmində parlaq bir iz qoymuşdur.

Xatırladaq ki, Həsən Məmmədbağır oğlu Abdullayev 1918-ci il avqustun 20-də Naxçıvan MR-in Culfa rayonununi qədim yaşayış məskəni olan Yayçı kəndində anadan olmuşdur. Orta təhsilini Yayçı kəndində almış və 1935-ci ildə Naxçıvan Kənd Təsərrüfat Texnikumunu bitirmişdir. Sonra Yayçı kənd yeddiillik məktəbində müəllim işləmişdir. 1937-

1941-ci illərdə ADPİ-nin fizika-riyaziyyat fakültəsində təhsil almışdır. H.Abdullayev Ordubad şəhər Pedaqoji Texnikumunda fizikadan dərs demişdir. 1944-cü ildə SSRİ EA Azərbaycan filialının fizika-riyaziyyat bölməsində laborant işləmişdir. 1945-48-ci illərdə AEA-nın Fizika-Riyaziyyat İnstitutunun aspiranturasında təhsil almışdır. 1948-ci ildə namizədlik dissertasiyası müdafiə etmiş, 1950-1953-cü illərdə H.Abdulayev A.F.İoffe adına Leninqrad (Sankt-Peterburq) Fizika-Texnika İnstitutunun doktoruanturasında təhsil almışdır. 1954-cü iddə doktorluq dissertasiyasını müdafiə etmişdir.

1959-1993-cü illərdə AMEA-nın Fizika İnstitutunun direktoru vəzifəsində çalışmış, 1955-ci ildə AEA-nın müxbir üzvü, 1967-ci ildə isə AEA-nın həqiqi üzvü, 1968-70-ci illərdə AEA-nın fizika-riyaziyyat bölməsinin akademik katibi, 1970-ci ildən 1983-cü ilədək AEA-nın prezidenti kimi yüksək vəzifədə çalışmışdır.

Akademik Həsən Abdullayevin əməyi yüksək qiymətləndirilmişdir. O, «Qırmsızı Əmək Bayrağı» ordeni, 1975-ci ildə fizika elminin inkişafındakı xidmətlərinə görə SSRİ EA-nın 250 illiyi münasibətilə «Qırmsızı Əmək Bayrağı» ordeninə, 1978-ci ildə «V.İ.Lenin» ordeninə, SSRİ XTNS-nin qızıl medalın, 1980-ci ildə «Əməkdar ixtiraçı» fəxri adına layiq görülmüşdür.

1993-cü il sentyabrın 1-də görkəmli alim, unudulmaz və bacarıqlı təşkilatçı, dünya şöhrətli akademik Həsən Abdullayev ağır xəstəlikdən sonra dünyasını dəyişmişdir.

Tədbirdə akademik Həsən Abdullayevi yaxşı tanıyan və onunla çiyin-çiyinə birgə çalışan akademik Maqsud Əliyev, Telman Əliyev. Bəhrəm Əsgərov onunla bağlı xatirələrini danışmışlar.

Tədbirin sonunda «Azərbaycan» nəşriyyatında nəfis şəkildə nəşr olunmuş «Akademik Həsən Abdullayev» kitabının təqdimetmə mərasimi keçirilmişdir. Təqdimat mərasimində fizika elminin inkişafında fərqlənən 16 nəfərə Həsən Abdullayev adına diplom və pul mükafatı təqdim olundu.

Mükafatları AMEA-nın prezidenti akademik M.Kərimov və yubilyarın qızı Sevinc xanım təqdim etmişlər.

Tədbirin sonunda yubilyarın qızı, fizika-riyaziyyat elmləri doktoru, professor Sevinc Abdullayeva çıxış edərək yubileyi təşkil edənlərə və «Akademik Həsən Abdullayev» kitabının təqdimatında iştirak edənlərə ailələri adından minnətdarlığını bildirdi.

## GÖRKƏMLİ PARTİYA VƏ DÖVLƏT XADİMİ, HAMININ SEVİMLİSİ AFİYƏDDİN CƏLİLOVUN YAŞASAYDI, 63 YAŞI TAMAM OLACAQDI....

*«Mən erməni kimi düşməndən heç vaxt qorxmuram, çünki düşmən qarşısına tam hazırlıqlı çıxıram. Amma ən çox qorxduğum üzdə dost, arxada düşmən olandır. Çünki belə şəxslərin tutduğu yol tam qara yoldur. Layiqli adamları məhv etməkdir onların niyyəti...»*



Özünün dediyi kimi, üzdə dost, arxada quyu qazanların hiyləsi ilə dünyadan köç etdi Afiyəddin Cəlilov. Ömrünün ən çiçəkləndiyi, insanlığın yüksək zirvəsinə ucalan bir dövrdə, xalqa arxa, dayaq olacağı bir zamanda, düşmənlə üzbəüz dayanan bir anda o, qəddarcasına qətlə yetirildi. Yaşasaydı, onun 63 yaşı avqust ayının 10-da tamam olacaqdı. Amma xain düşmən gülləsi ona Aman vermədi. Necə qıydılar ona, axı o, xalqın dayağıydı, onun ömrünün çiçəklənən dövrü idi. Görkəmli partiya və dövlət xadimi, Milli Məclisin sədr müavini A.Cəlilovu 29 sentyabr 1994-cü ildə ölüm əlimizdən alıb apardı. Onu gözü götürməyənlər, parlaq gələcəyindən qorxanlar ona atəş açdılar, qəddarcasına qətlə yetirdilər.

Afiyəddin Cəlil oğlu Cəlilov 1946-cı il 10 avqustda Naxçıvan şəhərində anadan olmuşdur. Ali təhsil almaq üçün o, Leninqrad (Sankt-Peterburq) dağ-mədən institutuna üz tutmuşdu. 1969-cu ildə oranı müvəffəqiyyətlə bitirmişdir. Bununla kifayətlənməyən A.Cəlilov Moskvada Sov.İKP MK

yanında İctimai Elmlər Akademiyasında təhsil almışdır. Doğma Naxçıvana dönən A.Cəlilov ali təhsilli mütəxəssis kimi əmək fəaliyyətinə Naxçıvan duz mədəndərində mühəndis-mexanik kimi başlamışdır. Dörd il burada işləyən A.Cəlilov bütün bilik və bacarığını bü müəssisəyə sərf etmiş, rəhbərliyin və işçi kollektivinin xüsusi hörmətini qazanmışdır. Sonra püxtələşmiş kadr kimi onun təşkilatçılıq qabiliyyətini nəzərə alan rəhbərlik onu daim diqqətində saxlamışdır. Afiyəddin Cəlilov komsomol və partiya orqanlarında daha çox öz təcrübəsini nümayiş etdirmişdir. Odur ki, o, Naxçıvan Vilayət Komsomol Komitəsinin birinci katibi vəzifəsinə irəli çəkilmişdir. Bu işdə özünü bacarıqlı, təcrübəli təşkilatçı kimi göstərmişdir. Mütəmadi olaraq Naxçıvan MR-də konfranslar, iclaslar keçirilməsini təşkil etmiş, komsomolçu-gənclərin istehsalatda və ictimai işlərdə fəal iştirak etmələrinə şərait yaratmış, onların alovlu vətənpərvər kimi yetişmələri üçün yerli komsomol komitələrindən tələb etmişdir. Gənclərin ali təhsil almaları üçün gərgin iş aparan Afiyəddin Cəlilov gənclərin dünyagörüşünün artmasını, ictimai işlərdə fəallıq göstərməsi üçün mühüm tədbirlər həyata keçirməsini təşkil etmişdir. Naxçıvan Vilayət Komsomol orqanında apardığı dəyərli işləri nəzərə alaraq qabiliyyətli komsomol işçisi kimi onu daha yüksək vəzifəyə irəli çəkmişlər. Azərbaycan MKGİ MK-nın katibi vəzifəsinə irəli çəkildiyi dövrdə respublikada komsomolçu gənclərlə birgə iş aparmışdır. Yüksək səviyyədə təlim-tərbiyə işinin qurulması respublikada komsomolçu gənclərin ictimai işlərə cəlb edilməsi və işlədikləri müəssisədə qabaqcıllar sırasına çıxmalarına ruhlandırmışdır. O, gənclərlə təbliğat-təşviqat işlərinin aparılmasının daha da sürətlənmək üçün səy və təşkilatçılıq bacarığını əsirgəməmişdir. Komsomol işində yüksək uğurlar qazanan Afiyəddin Cəlilov Azərbaycan KP MK-nın təlimatçısı işinə irəli çəkilmişdir. İki il bu vəzifədə işlədikdən sonra özünü səriştəli partiya işçisi kimi göstərən Afiyəddin Cəlilov Bakı şəhəri Nizami RPK-nin birinci katibi vəzifəsinə irəli

çəkilmişdir. O, rayonun iqtisadiyyatının daha da gücləndirilməsi, vaxtında verilmiş planların yerinə yetirilməsi üçün rayon zəhmətkeşləri ilə təbliğat işini daha da gücləndirilməsini təmin etmişdir. Bunun üçün rayonun əhatə etdiyi bütün müəssisələrdə olmuş, onlarla birgə işin təşkili istiqamətində mühüm tədbirlər həyata keçirmişdir. Hamıya xüsusi diqqət və qayğı ilə yanaşan Afiyəddin Cəlilov bütün problemlərin həll edilməsinə çalışmışdır. Onun əsas məqsədi insanlara dayaq olmaq, onların həyat tərzinin yaxşılaşdırılmasına əmək sərf etməyi ona şöhrət gətirmişdir. Səkkiz il görkəmli partiya işçisi kimi Afiyəddin Cəlilov bu işdə işləmişdir.

1989-cu ildə Naxçıvan MR Nazirlər Sovetinin sədri, Vilayət Partiya Komitəsinin birinci katibi kimi məsul vəzifələrdə işləimşdir. Naxçıvanda rəhbər vəzifələrdə işləyərkən sadə insanlara məhəbbətlə yanaşan, onları diqqətlə dinləyib, dərd-sərlərinə canla-başlaköməklik göstərən bir partiya rəhbəri olmuşdur. O, hər gün axşamlar insanların toplaşdığı yerə gələr, onlarla əylənər və onlardan çox şey öyrənməyə çalışardı ki, bu da ona həmişə başucalığı gətirərdi. Bütün insanlara eyni gözlə baxardı, vəzifəsindən asılı olmayaraq heç kəsə fərq qoymazdı. Əsl insanpərvər dövlət xadimi kimi Naxçıvanda Afiyəddin Cəlilov xüsusi hörmət qazanmışdı.

O, doğma torpağının hər qarışını gəzərdi, canından çox sevərdi bu torpağı. Əsas ülvi məqsədi Naxçıvanın iqtisadiyyatını yüksəltmək, insanların sosial həyat tərzini yaxşılaşdırmaq idi. Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi işlədiyi dövrdə Ermənistanın MR-ə təcavüzü nəticəsində blokada şəraitinə düşmüş MR-in iqtisadi-sosial problemlərinin həlli, MR-də vətəndaş həmrəyliyinin yaranması və sabitliyin qorunub saxlanılması sahəsində önəmli fəaliyyət göstərmişdir. Gecəli-gündüzlü öz kabinetində ən təxirəsalınmaz tədbirlər həyata keçirmişdir. Ermənilərin qəflətən Sədərəyə təcavüz etdiyi zaman MR-də olan bütün

nəqliyyat vasitələrini qısa zamanda səfərbər etmiş, qoca, uşaq və qadınların kənddən 5 km uzaqdakı meşəliyə çıxarılmasına nail olmuşdur. Onların çadırla, ərzaqla təmin edilməsi üçün bütün tədbirləri görmüş, idarə təşkilatlarını səfərbər etmişdir. Sədərəyin başının üstünü qara buludlar alanda Afiyəddin Cəlilov həm vilayət rəhbəri, həm də alovlu vətərpərvər kimi sədərəklilərlə və bütün döyüş bölgələrində insanlarla birgə olmuş, onlara ürək-dirək verərək mübarizəyə ruhlandırmışdır. O, bir rəhbər kimi təhlükənin nə olduğunu hiss etmirdi. Çünki torpağını canı qədər sevirdi. Həmişə səngərdəki əsgərlərə deyərdi: «Naxçıvan torpağına erməni ayağı dəyə bilməz, çünki naxçıvanlılar tarixən döyüşkən və torpağını mətinliklə qoruyub saxlayan insanlar olublar».

Afiyəddin Cəlilov Naxçıvanın müdafiəsində çox işlər görmüşdü, insanları səfərbər etmişdi, hamını vətərpərvər olmağa səsləyirdi. 1992-ci ildən Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini olarkən ölkəmizdə dövlət müstəqilliyinin möhkəmlənməsində, onun daxili və xarici siyasətinin formalaşmasında fəal iştirak etmişdi, ona verilmiş tapşırıqların vaxtında və düzgün yerinə yetirilməsinə çalışmışdı. Göstərdiyi fəaliyyətinə və önəmli işinə görə 1994-cü ildə Afiyəddin Cəlilov Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının vitse-prezidenti seçilimşdi.

1991-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdu. Seçicilərlə birlikdə müxtəlif tədbirlərin həyata keçirilməsindən o, başqalarından çox fərqlənərdi. Dəfələrlə Naxçıvan MR Ali Sovetinin deputatı seçilən Afiyəddin Cəlilov xalqımızın yaddaşında dərin izlər qoymuşdur. O bütün mükafatlardan ən qiymətlisi, xalqımızın qəlbində özünə əbədi sönməz heykəl ucaltmışdır. Baxmayaraq ki, Azərbaycan dövlətçiliyinin düşmənləri tərəfindən bu insan qətlə yetirildi.

Afiyəddin Cəlilovun əməyi yüksək qiymətləndirilimşdir. İki dəfə «Şərəf nişanı» ordeni və bir çox

medallarla təltif edilmişdir. Ömür vəfa etsəydi, onun 63 illiyini qeyd edəcəkdik. O, bizim üçün əsl həyat məktəbi qoyub getmişdir. Həyatda mübariz olmağı, vətənini sevməyi, torpağı göz bəbəyi kimi qorumağı biz həm də ondan öyrənmişdik.

## GƏNCƏDƏ «NAXÇIVANA YARDIN XEYRİYYƏ CƏMİYYƏTİ»NİN YARANMASI BARƏDƏ

*19 aprel 1991-ci il*

Bu cəimiyyətin yaranması münasibətilə və Naxçıvana yardım göstərməsi ilə əlaqədar olaraq Naxçıvan MR-sı Ali Məclisinin sədri Heydər Əliyev bu cəmiyyətin üzvlərinə Aşağıdakı məktubu göndərmişdi: «Hörmətli bacılar və qardaşlar! «Naxçıvana Yardın Xeyriyyə Cəmiyyəti»nin yaranması qədim Naxçıvan diyarında böyük hörmət və minnətdarlıq hissi ilə qarşılanmışdır. Cəmiyyətin üzvlərinə, Gəncə şəhərinin SAkinlərinə naxçıvanlıların səmimi salamını və dərin minnətdarlığını bildiririk. Həmrəylik və yardım üçün minnətdarıq. Gələcək fəaliyyətinizdə uğurlar, Azərbaycanın qədim diyarları Gəncə və Naxçıvan arasında qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsini arzulayırıq. Bütün gəncəlilərə cansağlığı, səadət diləyirik».

*Heydər ƏLİYEV,*
*Naxsıvan MR Ali Məclisinin sədri*

«Naxçıvana Yardın Xeyriyyə Cəmiyyəti»nin yaranması və fəaliyyəti barədə görkəmli professor-alim, qalın-qalın kitabların müəllifi, naxçıvanlıların ən yaxın dostu professor Bağır Bağırovun «Çeşmə suyu duru olur» adlı kitabında daha ətraflı qələmə alınıb. 1988-ci ildə bu kitab Gəncə şəhərində çıxsa da, bir tarix kimi bu, qızıl hərflərlə tarixə yazılıb. Həmin kitabdan bir çox məqamların aktuallığı ilə günümüzlə səslənən tarix kimi oxuculara çatdırmağı vacib bildik. Müəllif professor Bağırovun yazdığı kimi: «Bakıda törədilmiş 20 yanvar qanlı faciəsi bütün gəncəliləri hiddətləndirdi. Odur ki, bu qanlı hadisəyə öz münasibətlərini bildirmək üçün 21 yanvar 1990-cı ildə qocaman nəqliyyatçı, hamının yaxşı tanıdığı Musa Musayev Gəncə şəhər XDSİK XX (növbədənkənar) çağırış

sessiyasının çağrıldığını eşidib sessiyaya gəldi. Həmin sessiyada elə ilk söz də Musa Musayevə verildi. O dedi:

«Yoldaşlar, daha susmağın yeri deyil. Bundan da qara günümüz olmayacaq. Rus ordusu Bakıda çox ağır, özü də qanlı bir cinayət törədib. Əbdürrəhman Vəzirou xalqa ən dəhşətli xəyanət edib. Ölkəyə rəhbərlik edən Qorbaçov, müdafiə naziri Yazovun əlləri xalqımızın günahsız qanına batıb. Hadisənin kökləri hamımıza məlumdur. Xahiş edirəm, hamı bu hadisəyə münasibətini bildirsin. Özü də bu sessiyada eləbir qərar qəbul etməliyik ki, tarix qarşısında xəcalətli qalmayaq və bugünkü nəsil sabah bizi məhşər ayağına çəkməsin, Daş-qalaq etməsin».

Çıxış edənlər mövcud hakimiyyətin siyasətini lənətlədilər. Bu tarixi sənəd Gəncə əhalisinin iradəsini əks etdirdi. Gəncə şəhər XDSİK-nin sessiyada çıxardığı qərardan:

1. Hüquqi əsası olmadığından Azərbaycan SSR-in suverenliyi haqqında Konstitutsiya qanunu kobud surətdə pozulduğuna görə Bakı şəhərində fövqəladə vəziyyətin ləğv edilməsi SSRİ Ali Sovetindən tələb edilsin.

2. Gəncə şəhərindən Sovet Ordusu sıralarına çağırışlar Milli qoşun hissələri yaradılanadək dayandırılsın.

3. SSRİ tərkibindən respublikanın çıxması barədə əhali arasında referendum keçirmək Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinə təklif olunsun.

4. Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin SSRİ tərkibindən çıxmaq barədə 19 yanvar 1990-cı il tarixli fərmanı bəyənilsin və müdafiə olunsun.

Sessiya 10 bənddən ibarət qərar qəbul etmişdir. Gəncədə Naxçıvan hadisələrinə biganə qalan bir şəxs belə tapmaq olmadı. Odur ki, Gəncə ziyalıları, alovlu vətənpərvərlər çalışırdılar ki, Naxçıvana yardım etsinlər. Bu niyyətlə 19 aprel 1991-ci ildə Gəncədə «Naxçıvana Yardım Xeyriyyə Cəmiyyəti»nin yaratmalı oldular. Bu cəmiyyətin yaranmasında səs-küy salanlar olsa da, bu gün Gəncə şəhər Nizami rayon prokuroru, «Naxçıvana Yardım Xeyriyyə Cəmiyyəti»nin sədri,

baş ədliyyə müşaviri Hüseyn Əlizadə layiqli cavab verdi və hər şey öz yerini tutdu. Bu barədə Hüseyn Əlizadə bir məqalə də yazdı.

«Naxçıvana Yardın Xeyriyyə Cəmiyyəti»nə gəncəlilər, şəmkirlilərin, goranboyluların, Xanlar və Samux vətənpərvərlərinin adları Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevə və Naxçıvan Dövlət Müdafiə Komitəsinin sədri olan E.Abbasova adbaad məlumdur. Bunu açıqlamağa dəyməz...

Professor Bağır Bağırov «Çeşmə suyu duru olur» kitabında yazır ki, «Naxçıvana Yardın Xeyriyyə Cəmiyyəti»nin yaranması dövrdə Gəncədə Elçibəy dövründə yaranmış hakimiyyət boşluğu, hərc-mərcliyin baş alıb getdiyi, mitinqlərin gurultulu və ardıcıl keçirildiyi, silahlı dəstələrin küçələrdə meydan suladığı, bununla əlaqədar olaraq möhtərəm prezidentimiz Heydər Əliyevin adının çəkilməsinin belə yasaq olduğu bir vaxtda, gərginliyin son həddə çatdığı bir mühitdə bu cəmiyyəti yaratmaq və ona rəhbərlik etmək sözün həqiqi mənasında əsl qəhrəmanlıq idi, ölümü açıq-aşkar göz önünə gətirmək idi. Cəmiyyətin sədri Hüseyn Əlizadə özü vəzifə daşıyırdı, dövlət adamı idi və o bu çox çətin və təhlükəli işə billə-bilə, şüurlu surətdə girişmişdi, onu nə kimi məhrumiyyətlər, cəza və tənbehlər gözlədiyini bir hüquqşünas olaraq çox gözəl başa düşürdü. Lakin o, həyatını təhlükə qarşısına qoyaraq bu işə qol qoymuşdu, vəzifəsini itirməyi, ailəsinin başına min bir müsibət açılmamasını gözü qarşısına almışdı. Lakin Hüseyn Əlizadə bütün təhlükələrə sinə gərərək cəmiyyət üzvlərini səfərbərliyə aldı, möhtərəm prezidentimiz Heydər Əliyevin mövqeyini dəstəklədi, hədsiz sarsıntılar keçirdi, əzab çəkdi, amma belə çətin məqamda bir çoxları bir dəfə də olaraq cəmiyyətin qapısını belə açmadılar. Bir ziyalı və vətən övladı olaraq Hüseyn Əlizadənin mövqeyi, amalı başqa idi. O, cəmiyyəti həm yaratdı, həm sədri oldu və onu bütün hədə-qorxulardan, basqınlardan, bədxahlardan mərdliklə, açıq-aşkar müdafiə edirdi. Hətta Hüseyn Əlizadə Heydər Əliyev cənablarının səlahiyyətli nümayəndəsinin

Gəncəyə gəlişi, sədrin onunla sıx əlaqəsi cəmiyyət üzvləri arasında xoş ovqat yaratmış, onları ruhlandırmış, daha da formalaşdırmışdı.

«Naxçıvana Yardım Xeyriyyə Cəmiyyəti»nin fəal üzvlərindən biri Musa Musayev nəqliyyat işçisi, veteran cəmiyyətin işi barədə deyir: «Qısa müddətdə cəmiyyət xeyli iş gördü. Belə ki, aparılan təşkilati işlər nəticəsində Naxçıvan Müdafiə Nazirliyinin fonduna Gəncə idarələrindən xeyli miqdarda vəsait köçürüldü. Həmçinin cəmiyyətin üzvləri tərəfindən öz şəxsi vəsaitləri hesabına toplanmış xeyli miqdarda pulu Gəncə hərbi xəstəxanasında yatan və müalicə olunan hərbçilərə payladılar. Bunlardan başqa, Gəncənin qeyrətli vətənpərvər kişiləri hesabına Naxçıvana «Yak-40» təyyarəsi ilə xeyli hərbi sursat yola salındı.

Belə bir təhlükəli anlarda damarlarında azərbaycanlı qanı axan sürücü qəhrəmanlardan Rufulla Qurbanov, Elşən Əliyev «UAZ-469» markalı və digər avtomaşınların təcili yük daşımaq üçün maşınları verməyi xahiş edirdilər. Mən isə həmin günlərdə onlara maşın ayırmaqla yanaşı, qarajın fəhlə yeməkxanasında süfrə açır, borşdan, supdan yedizdirib xeyir-dua ilə yola salırdım».

Musa Musayev sözünə davam edərək qeyd edir ki, «hansı avtomaşınlarla hərbi sursat yola salınırdı və yaxud aeroportda rus əsgərləri sürücüləri saxlayıb, sursatın haradan alındığını tələb edirdilər. Biz isə buna əvvəlcədən lazımi hazırlıq işləri görür, hərbçiləri pulla və yaxud konyakla satın alır, yükləri aeroporta çatdırırdıq. Bu işdə həqiqətən sürücülər cəsurluq, qəhrəmanlıq göstərirdilər, özlərini təhlükə qarşısında qoyduqlarını unuda bilmirəm. Bu işləri o sürücülər təmənnasız yerinə yetirmələrini qəlbi vətən eşqi ilə döyünən qorxmaz, fədakar insanlar adlandırıram. Hərbi sursat aparan «Kamaz» sürücülərindən Məməd Nəsirov, Telman Məmmədov, Nurəddin Məmmədov, Əli İsmayılov, Zahid Xəlilov, Rəşid Hüseynov, Camal Kərimov hərbçilər tərəfindən yaxalansalar da, həmçinin göstərdikləri cəhd

hamısı puça çıxırdı. O anlarda ani vaxtı itirmək böyük faciələrə gətirib çıxara bilərdi. Naxçıvana yola salınanda yük çox olsun deyə hər dəfə təyyarələr yüklənəndə mahir sənətkarlarımız təyyarələrin oturacaqlarını sökür, işi nizama salandan sonra isə yenidən düzəldilirdi. Cəmiyyətin təşəbbüsü ilə iş planlı şəkildə həyata keçirilidi. Belə ki, əvvəlcədən planlaşdırılmış iş hərbi sursatın bir yerə yığılması və yüklənməsi Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının yataqxanasında qalan naxçıvanlı tələbələr və onların dostları tərəfindən görülürdü. Onlar müəyyən sursatı maşınlara yığıb hazır vəziyyətdə dayanırdılar. Sonra isə məqam düşən kimi həmin yüklərin aparılması əməliyyatını təşkil edir, Naxçıvana yola salırdılar.

Onu da xüsusi qeyd etmək kifayətdir ki, Gəncədə fəaliyyət göstərən cəmiyyətin bütün üzvləri qəhrəmanlıq nümunəsi göstərərək işdə əsl Əliyevçilər idilər və gördükləri işləri vicdani borcu sayırdılar.

Professor Bağırov cəsarətlə, həm də urək ağırsı ilə qeyd edir ki, Heydər Əliyevi dəstəkləyənlərin çoxunu bu qorxulu anlarda yanımızda görmürdüm, səslərini belə eşitmirdim. Ancaq sonralar Heydər Əliyevin şan-şöhrətinin, nüfuzunun artmasını görən bu «qoçaqlar» - havaya baxıb rənglərini dəyişən üzdəniraq gözüaçıq bəzi «alimlər», hüquqşünaslar, siyasət xadimləri özlərini irləi verməyə başladılar. Hətta qeyrətli vətən övladlarını öz ətrafında birləşdirən «91-lər»in sıralarına soxulmağa belə nail oldular.

Sonra cəmiyyəti dağıtmaq, onun fəaliyyətinə zərbə endirmək məqsədilə Gəncə şəhər Partiya Komitəsinin birinci katibi Səbuhi Abdinov Alimlər Evini ziyalılardan alıb başqa təşkilata verdi. Bələliklə, Gəncədə «Naxçıvana Yardım Xeyriyyə Cəmiyyəti»nin fəaliyyəti dayandırıldı.

Sonra cəmiyyətin bir qrup üzvləri Naxçıvana uçmuş, Sədərək döyüşlərində əsl qəhrəmanlıq nümunəsi göstərmiş, Heydər Əliyevin xüsusi təşəkkürünü və hədiyyələrini alaraq doğma yurda – Gəncəyə qayıtmışlar.

Əlbəttə ki, ən böyük müdrik hakim tarixdir. Vaxt gələcək sular durulacaq, kimin kim olduğu hamı üçün gün kimi aydınlaşacaq, hərə öz rəngində görünəcəkdir. Əsl sorğu-sualın da o vaxt başlanacağı şəksizdir...

Əziz oxucular, bu o vaxtlar idi ki, ermənilərin Sədərəyə top atəşləri ara vermirdi. Hər gün həyəcanlı xəbərlər eşidilirdi. Azərbaycanın bu qədim diyarı Naxçıvan hərtərəfli blokada şəraitində yaşayırdı.

109 şəhid oğul verərək Sədərək Heydər Əliyevin rəhbərliyi ilə torpağı qəhrəmanlıqla qorudu, düşmənə bir qarış da olsun torpaq vermədi. Ona görə də Sədərəyi Heydər Əliyev Naxçıvanın «Dəmir qala-qapısı» adlandırırdı. Bu gün Sədərək ulu öndərimizin ideyaları əsasında inkişaf edir, tikir, qurur, abadlıq işləri aparır, rayon kimi inkişaf edir. Bu, hamını sevindirir.

Bütün naxçıvanlılar adından hörmətli professor, gözəl qələm sahibi, Gəncədə yazıb-yaradan el oğlu, gözəl alim, alovlu vətənpərvər, səriştəli yazıçı Bağır Bağırova öz minnətdarlığımızı bildirir, ona möhkəm cansağlığı, işlərində uğurlar arzulayırıq.

Nə yaxşı ki, belə savadlı alimlərimiz var, yoxsa tariximiz tamamilə itib-batardı. Bu gün bu tarix qızıl hərflərlə qızıl tariximizə yazıldı. Bu, bizim gənclərimiz üçün örnək olacaqdır. Qoy gələcək nəsil bu tarixi daim oxusun və yaşatsın!

## GÖRKƏMLİ ALİM VƏ ELM TƏŞKİLATÇISI



*Qədim Naxçıvan torpağı çox böyük mütəfəkkirlər, ədəbiyyatçılar, alimlər, mədəniyyət xadimləri dünyaya bəxş edib. Bura Yusif Məmmədəliyev, Həsən Abdullayev, Eldar Salayev, Fəraməz Maqsudov kimi görkəmli alimlər daxildir. Bu alimlər öz əvəzsiz xidmətləri və kəşfləri ilə həm Naxçıvanı, həm də çiçəkli Azərbaycanı dünyaya tanıdıblar. Onlardan biri də akademik Mahmud Kərimovdur. Mahmud Kərimov çox sadə, təvazökar, nəcib, özünü reklamdan uzaq görən görkəmli şəxsiyyətdir. O, ömrünün 60 illiyinə çatmışdır.*

Akademik Mahmud Kərimovun 60 ildə keçdiyi həyat yolu barədə AMEA Naxçıvan bölməsinin sədri, akademik İsmayıl Hacıyevdən müsahibə aldıq:

- Hörmətli İsmayıl müəllim, siz akademik Mahmud Kərimovu bir alim kimi yaxşı tanıyırsınız və onun həyat və fəaliyyətini hamıdan yaxşı bilirsiniz. Bu 60 ildə Mahmud Kərimov hansı işləri görüb?

- Elmimizin baş memarı, məbədi kimi tanınan AMEA-nın 63 illik tarixinin son 7 ilinə akademik Mahmud Kərimov rəhbərlik edir. Bu illər Milli Akademiyanın tarixinə uğurlu və yaddaqalan illər kimi daxil olub. Mahmud Kərimov Akademiya ilə bağlı çatışmazlıqları və uğurlu nəticələri yaxşı bilirdi. Çünki o, AMEA-da müxtəlif vəzifələrdə fəaliyyət göstərmiş və akademiya işini yaxşı bilir. Onun atası Kərim Kərimov da Akademiyada işləmiş, AMEA-nın müxbir üzvü olmuş, sənətşünas alim idi. Məhz belə bir ziyalı ailəsində

böyümüş, tərbyiə almış Mahmud Kərimovun elm yolunu tutması da tamamilə təbii və qanunauyğun idi. Onun Akademiya ilə bağlı olması da təsadüfi deyil. 17 il Radiasiya Tədqiqatları Sektorunun rəhbəri, elmi və təşkilati işlərdə kifayət qədər təcrübəli, görkəmli alim kimi tanınması onu Elmlər Akademiyasının prezidenti vəzifəsinə gətirib çıxarıb. Akademik M.Kərimov intellektual səviyyəli, mənəvi-əxlaqi keyfiyyətləri və yüksək mədəniyyəti ilə respublikada çox yüksək nüfuz qazanmışdır. O, idarəetmədə inzibatçılıqdan daha çox idarəetməyə və mənəvi-əxlaqi meyarlara üstünlük verir. M.Kərimovun bu keyfiyyətləri hər bir Akademiya işçisini uğurlu keyfiyyətlərə istiqamətləndirir. İdarəetmədə M.Kərimovun bir dəfə də olsun, ucadan danışan, səsini ucaldan görən olmamışdır. Çünki bu keyfiyyətlər M.Kərimovun xarakterinə yaddır. Akademik M.Kərimovun prezidentliyi dövründə regionlarda elmin inkişafına xüsusi diqqət və qayğı göstərmişdir.

- İsmayıl müəllim, biz bilirik ki, siz M.Kərimovun həmişə diqqət və qayğısını hiss etməklə yanaşı, onun köməyinə arxalanmısınız. Bəs, onun müsbət cəhətləri və tarixi xidmətləri nə ilə səciyyələnir?

- AMEA-nın 60 illik yubileyi keçiriləndə, Respublika Prezidenti İlham Əliyev yubileydə iştirak və çıxış edərək demişdir: «Mən də fəxr edirəm ki, AMEA bu gün çox yüksək səviyyədədir. Akademiya əməkdaşlarına fəxri adlar, dövlət mükafatları verilmiş və onların sosial vəziyyətlərinin yaxşılaşdırılması üçün əlavə tədbirlər görülmüşdür. Onun şəxsi təşəbbüsü və baş redaktorluğu ilə AzME-sı kitabı işıq üzü görmüşdür və bu iş davam edir. O, bir sıra beynəlxalq və respublika səviyyəli qurum və təşkilatlara rəhbərlik edir və onların işinə yaxından kömək edir».

Respublikanın elmi ictimaiyyəti, ziyalıları M.Kərimovu təvazökar və nəcib insan, görkəmli alim və elm təşkilatçısı kimi tanıyır və qəbul edirlər. Elmdəki xüsusi xidmətlərinə görə akademik M.Kərimov ölkə prezidentinin sərəncamı ilə

«Şöhrət» ordeni ilə təltif edilmişdir. Biz Naxçıvan ziyalıları da akademik M.Kərimovu həm 60 illik yubileyi ilə, həm də «Şöhrət» ordeni alması münasibəti ilə ürəkdən təbrik edir, ona cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

İnanırıq ki, AMEA-nın alimləri və onun rəhbəri M.Kərimov bundan sonra da daha da öz səy və bacarıqlarını əsirgəməyəcək bütün dünya miqyasında uğurlu nəticələr əldə edəcəkdir.

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ BEYNƏLXALQ "MİNİLLİYİN UNİVERSİTETİ" MÜKAFATINA LAYİQ GÖRÜLDÜ



Naxçıvan Dövlət Universiteti qısa bir müddətdə böyük inkişaf yolu keçmiş, Azərbaycanın ali məktəblərinin ön cərgəsinə çıxmış və beynəlxalq aləmdə özünəməxsus nüfuz qazanmışdır.

NDU-nun timsalında Naxçıvanda möhkəm milli əsaslara malik olan, dövlətçilik təmayüllü, avropayönümlü, müasir standartlara cavab verən və müasir tipli hərtərəfli inkişaf etmiş ali məktəb formalaşmışdır. NDU dünyanın 4 qitəsində 30-dan çox ali məktəblə (universitetlə) çoxcəhətli əlaqələr yaratmış, beynəlxalq səviyyəli elmi qurumlarla səmərəli əməkdaşlığı bu ali təhsil ocağında inteqrasiya proseslərini daha da dərinləşdirmiş və sürətlə inkişaf etdirmişdir. AMEA-nın NDU-da həqiqi və müxbir üzvlərinin, çoxsaylı elmlər doktorlarının, professorların, fəxri ad almış alimlərin bu ali təhsil ocağında fəaliyyəti təhsilin keyfiyyətinin yüksəlməsinin bariz nümunəsidir. NDU-da aparılan tədqiqat işləri dünyanın bir çox ali təhsil ocaqlarında çalışan elm fədailəri tərəfindən yüksək

qiymətləndirilir.

Bütün bu görülən qiymətli işlər beynəlxalq ictimaiyyətin diqqətini də cəlb etmişdir. NDU NATO, BMT, Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilatlarla birgə layihələrin həyata keçirilməsində iştirak edib və uğurlu nəticələr qazanıb.

NDU-nun Avropa Rektorlar Klubuna üzv seçilməsi, əməkdaşlardan 4 nəfərinin Nyu-York Elmlər Akademiyasının, 1 nəfərin BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının, 2 nəfərin Beynəlxalq Turizm Akademiyasının üzvlüyünə qəbul edilməsi bütün ziyalıları ürəkdən sevindirir. NDU Asiya Universitetləri Assosiasiyasının üzvlüyünə qəbul olunması üçün həmin cəmiyyətin yüksək rəhbərliyi tərəfindən təklif almışdır.

Bu günlərdə NDU ilə əlaqədar Sənayeçilər və Sahibkarların Biznes, Elm və Mədəniyyət liderlərinin Beynəlxalq Konqresi təhsilin və yeni texnologiyaların tətbiqinin inkişaf etdirilməsi sahəsindəki mühüm nəticələri nəzərə alaraq NDU-nu "Minilliyin universiteti" Beynəlxalq mükafatına layiq görmüşdür. Bu barədə Beynəlxalq Konqresin İllik Tədqiqatları Mərkəzinin NDU-nə göndərdiyi məktubda deyilir: "Hörmətli İsa Əkbər oğlu! Böyük məmnuniyyətlə sizə bildiririk ki, rəhbərlik etdiyiniz ali məktəb ən müasir texnologiyaların səmərəli və professional səviyyədə istifadə olunması, qeyri-adi mütərəqqi layihələrin hazırlanması və tətbiq edilməsi sahəsindəki nailiyyətlərə görə "Minilliyin universiteti" Beynəlxalq mükafata layiq görülmüşdür. Sizə elmi və iqtisadi potensialın daha da möhkəmləndirilməsi istiqamətindəki səmərəli fəaliyyətinizə görə dərin hörmət və ehtiramımızı bildiririk".

NDU-nun bu yüksək mükafata layiq görülməsi bir daha sübut edir ki, bu, ali məktəbin dünya miqyasında tanınmasının daha bir parlaq nümunəsidir, qazanılan layiqli göstəricisidir. Naxçıvan Dövlət Universitetinə "Minilliyin

universiteti" Beynəlxalq mükafatın təntənəli təqdimat mərasimi 20 fevral 2009-cu ildə Moskva şəhərində keçirilib.

NDU-nun professor-müəllim heyətini bu yüksək mükafata layiq görülməsi münasibətilə təbrik edir, kollektivə daha böyük uğurlar arzulayırıq!

## NDU-NIN UĞURLARI HAMIMIZI SEVİNDİRİR



Bu günlərdə NDU-da ötən ilin yekunlarına həsr olunmuş yığıncaq keçirilib. Yığıncaqda NDU-nun rektoru, akademik İsa Həbibbəyli məruzə ilə çıxış edib. O qeyd edib ki, 2008-2009-cu tədris ilində NDU Muxtar Respublikanın ali təhsilli mütəxəssislərə olan ehtiyacını ödəyən müasir təhsil mərkəzinə çevrilib.

Universitetdə Azərbaycanın 21 rayonundan, eləcə də qonşu İran və Türkiyə Respublikalarından, o cümlədən Koreya, Misir, Banqladeş, Nigeriyadan tələbələr təhsil alır. Bu ali təhsil ocağında 2 akademik, 8 professor, 9 dosent, 24 elmlər doktoru, 163 elmlər namizədi fəaliyyət göstərir.

İ.Həbibbəyli daha sonra qeyd etmişdir ki, Universitet əməkdaşlarının ötən il respublikada 546, xarici ölkələrdə 72 elmi məqaləsi cap olunmuşdur. Həmçinin universitet əməkdaşları 5 beynəlxalq, 6 respublika simpoziumunda fəal iştirak ediblər. NDU-nun əməkdaşları və tələbələri 2008-ci ildə Misir Ərəb Respublikasında olmuş və ərəb dili kursları keçmişlər. Bundan başqa beynəlxalq əlaqələr sahəsində də universitet bir çox uğurlar qazanıb. Belə ki, Özbəkistan, Kanada, İsveçrə universitetlərinin NDU-da keçirilən elmi konfranslara qoşulması, ATƏT-lə birgə ekologiya üzrə "Yaşıl paket" beynəlxalq seminarların

təşkil olunması, Rusiyanın Novosibirski şəhərində ulu öndərimiz Heydər Əliyevin 85 illik yubileyinə həsr olunmuş simpoziumun keçirilməsi memarlıq və inşaat ixtisaslarının müəllim və tələbələrinin Təbriz Universitetində müxtəlif görüşlər keçirməsi, universitetin tibb fakültəsinin tələbələrinin Kocaeli universitetində təcrübədə olması. NDU tarixində əlamətdar günlər olmuşdur.

2008-2009-cu tədris ilində NDU-ya 97,33 faiz tələbə qəbul olmuşdur. Tələbələr arasında 113 nəfərdən artıq 500-dən çox, 9 nəfər 600-dən artıq bal toplayıb tələbə adını qazanmışdır.

Rektor daha sonra qeyd etmişdir ki, universitetin informasiya və texnologiya sahəsində əldə etdiyi uğurlar da sevindirici olmuşdur. Belə ki, universitetdə "Elektron-Naxçıvan-4" proqramı həyata keçirilmiş, NATO-nun qrantı əsasında uzaq düşmüş regionlarda İKT-nin rolu və əhəmiyyəti mövzusunda beynəlxalq simpozium təşkil olunmuşdur. Boloniya sisteminə keçidlə bağlı Təhsil Qeydiyyat Mərkəzi yaradılmış, İKT-nin təbliği ilə 31 "açıq dərs" keçirilmiş, ilk dəfə olaraq universitetdə televiziya vasitəsi ilə canlı yayım təşkil olunmuşdur.

Tədbirdə daha sonra universitet müəllimləri çıxış edərək öz fikirlərini bildirmişlər.

## SƏDƏRƏK MƏKTƏBİNİN MƏZUNU TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNDƏ LAYİHƏ İLƏ ÇIXIŞ ETDİ

*R.T.Ərdoğan: «Nə qədər ki, dünya var, biz Azərbaycanla qardaşlığımızı davam etdirəcək və daha böyük layihələr həyata keçirəcəyik».*



Əli Əliyev Sədərək 2 saylı orta məktəbini bitirib. O, məktəbdə oxuduğu vaxtda bütün viktorinalarda çox fəal iştirak edərək həmişə mükafatlar alırdı. Savadlı şagird kimi məktəbin və rayonun idman şərəfini qoruyurdu.

Əli 2005-ci ildə orta məktəbi dörd və beş qiymətlərlə bitirərək elə həmin ildə Azərbaycan Beynəlxalq Universitetinin gömrük işinin təşkili fakültəsinə qəbul olunub. Hazırda IV kurs tələbəsidir.

Sədərək rayonunda olarkən rayon Təhsil Şöbəsinin müdiri Oruc Həbibov məni Əli Əliyevlə görüşdürdü və onun haqqında mənə daha ətraflı məlumat verdi. Sonra Əli ilə həmsöhbət oldum:

- Əli, necə oldu ki, sən Türkiyəyə dəvət aldın?

- 2004-cü ildən başlayaraq ABU rəhbərliyi və Türkiyənin parlamentlər birliyi ilə birgə keçirdikləri gənclik məclisində proqramla 120 nəfər Ankaraya göndərilir. Bu məclisdə imtahanları uğurla başa vuran ali məktəb tələbələri iştirak edirlər. Məqsəd gənclərin hüquqi təcrübəsinin artırılmasıdır. Bu il də həmin proqrama əsasın 12 iyun 2008-ci ildə bizi ABU-dən Türkiyəyə dəvət etdilər. Bizi çox səmimi qəbul edib yer verdilər. İlk dəfə biz AK partiyasına dəvət aldıq.

Sonra DSP-da xalqın yüksəliş partiyasında (NU) və Milliyətçi Hərəkət Partiyasında (MHP) olduq. Bizi Türkiyənin AK partiyasının lideri Rəcəb Tayyib Ərdoğanın bir il bundan öncə müavini olan Abdulla Lətif qəbul etdi. O bizimlə 3 saat 15 dəqiqə Türkiyənin daxili və xarici siyasəti barədə söhbət etdi. Verdiyimiz bütün suallara səmimi cavab verdi. Sonra vaxt tapıb baş nazir Rəcəb Tayyib Ərdoğan bizi genel mərkəzində qəbul etdi. Söhbət məxfi keçirildiyindən yüzlərlə jurnalist və 57 televiziya kanalı içəridə baş nazirin danışıqlarını izləyirdi. Ərdoğan bizə Türkiyənin xarici və daxili siyasətindən danışdı. Sonra bizə nəyi daha çox bilmək istərdik sualını açıqladı və ona lazımi sualı verməyi bildirdi. Türkiyə baş nazirinə bir neçə suallar verildi. Sonra mən Azərbaycandan olduğumu bildirərək ona sual vermək istədiyimi bildirdim. O çox sevindi, mən Azərbaycanla Türkiyə dostluğundan danışdım. Bakı-Tbilisi-Qars dəmir yolundan və layihələrdən, dostluğun davam edəcəyindən. Ərdoğan güldü və qeyd etdi ki, «nə qədər ki, dünya var, biz Azərbaycanla qardaşlığımızı davam etdirəcək və daha böyük layihələr həyata keçirəcəyik». Hazırda o layihələrdən biri «Şahdəniz» qaz kəmərinin çəkilməsidir. Sonda Ərdoğan bizimlə birgə şəkil də çəkdirdi. Ertəsi gün 10 milyon tirajla çıxan və satılan «Millət, vətən, sabah» qəzeti baş nazirlə söhbətimizi dərc etdi. Həmin gün biz Ərdoğanın müavini Dengir Firatla da görüşdük. Oda Ərdoğan kimi bizi siyasətə yönəltdi və suallarımızı cavablandırdı. Axırıncı həftədə parlamentdə toplantı salonunda bizim üçün yer ayrıldı. Bizim hər birimiz and içdik, toxunulmazlıq statusu aldıq, Məclisin başqanı Şərəf İbad bizə kömək etmək üçün şəxsi adam ayırdı. Digər yoldaşlarımdan fərqli olaraq mən «Türkiyə Böyük Millət Məclisində Xocalı soyqırımı qəbul olunsun və hər il 26 fevralda qeyd edilsin» adlı hazırladığım layihəni Məclisə təqdim etdim. Mənə 5 dəqiqə çıxış etmək üçün vaxt ayrıldı, ermənilərin biz azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərdən ətraflı danışdım. Məni tez-tez millət vəkilləri alqışlayırdılar. Çıxışdan sonra Məclis başqanı layihəni səsə

qoydu və 75 nəfər layihənin qəbuluna səs verdi, 4 nəfər isəsəsvermədə iştirak etmədi. Sonuncu gündə bizi Dəniz Baykal da qəbul etdi, bizə gördükləri işlər barəsində ətraflı məlumat verdi. Məclisdə uğurla və dəyərli çıxış etdiyimizə görə şərəfimizə ziyafət verildi və Türkiyə Böyük Millət Məclisinin fəxri fərmanı ilə mükafatlandırıldıq. Xatırladım ki, Məclisdə Türkiyənin 550 millət vəkili iştirak edirdi.

İyunun 12-də biz vətənə alnıaçıq döndük və istəyimizi türk qardaşlarımıza çatdırdıq. Biz bir daha dostluğumuzun sarsılmaz olduğunu gördük və daha sıx birləşməyimizə zəmin yaratdıq. İnanırıq ki, bundan sonra da Türkiyə ilə Azərbaycan böyük layihələr həyata keçirəcək, birlikdə düşmənə lazımi cavab verəcəklər».

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI SƏHİYYƏ İŞÇİLƏRİNİN 85 İLLİYİ VƏ SƏHİYYƏ İŞÇİLƏRİNİN 2008-Cİ İLDƏKİ UĞURLARI

Bu günlərdə Naxçıvan Muxtar Respublikasında (MR) Səhiyyə Nazirliyinin yaranmasının 85 illik yubileyinə və 2008-ci ildə səhiyyə işçilərinin qazandığı uğurlara həsr edilmiş tədbir keçirilib. Tədbirdən əvvəl səhiyyə işçiləri ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərindəki heykəlini ziyarət edib, gül-çiçək dəstələri qoyub və ulu öndərin adını daşıyan muzeyin zəngin eksponatları ilə tanış olublar. Tədbiri Naxçıvan MR-in Səhiyyə naziri Niyazi Novruzov açaraq səhiyyə işçilərini yubiley münasibətilə təbrik edib və ötən ilin yekunları barədə ətraflı çıxış edib.

Mətbuat xidmətindən bizə verilən məlumata görə, nazir öz çıxışında bildirib ki, qədim Naxçıvıan torpağında 85 illik tarixi olan Səhiyyə Nazirliyi və burada çalışan tibb işçiləri üzərlərinə düşən bütün vəzifələri layiqincə yerinə yetiriblər. Xalqın sağlamlığı üçün bütün səy və bacarıqlarını əsirgəməyiblər.

Naxçıvan Səhiyyə Nazirliyi XX əsrin elmi-texniki tərəqqisindən bəhrələnərək xalqın sağlamlığı keşiyində dayanıb. Son illərdə Naxçıvan MR-də həyata keçirilən quruculuq tədbirlərində səhiyyə işçilərinə də xeyli pay düşüb. Səhiyyə ocaqlarında yeni binalar tikilib, tibb məntəqələri açılıb, köhnə binalar təmir edilib. İl ərzində Səhiyyə Nazirliyinə 10 ədəd «Mersedes» markalı tibbi yardım maşını verilib. Ötən ilin 11 ayı ərzində MR-də 6 min 746 uşaq doğulub ki, bu da 2007-ci ildəkindən 13 faiz çoxdur. Uşaqlar arasında ölüm hallarının (1 yaş) sayı azalıb. Peyvəndə 95 faiz əməl edilib.

MR-də dispanserizasiya işini daha da yaxşılaşdırmaq üçün ucqar dağ kəndlərində əhaliyə səhiyyə xidmətləri göstərmək üçün rayon mərkəzi xəstəxanasının, Doğum Mərkəzinin və Mərkəzi Uşaq Xəstəxanasının, dispanserlərinin

təşkil etdiyi həkim briqadalarının işi yaxşı təşkil olunub. Əhalinin sağlamlığı üçün lazımi işlər görülüb.

2008-ci ildə Şahbuzkənd həkim ambulatoriyası, Təcili Yardım Mərkəzi, Aşağı Yayçı, Kolanı, Əbrəqunus, Zeyvə və Qarxun. Biçənək, Ərəfsə həkim ambulatoriyaları, Nehrəm kənd xəstəxanası və açılışında ölkə prezidenti İlham Əliyevin iştirak etdiyi Culfa rayon Mərkəzi Xəstəxanasının və Duzdağ Fizioterapiya Mərkəzi ən Müasir tibbi avadanlıqla və inventarlarla təchiz edilərək istifadəyə verilib. MR üzrə 3770 ədəd qlukomer aparatı alınaraq şəkərli diabet xəstələrinə paylanıb. İl ərzində tibb işçilərinin ixtisas səviyyəsinin artırılması sahəsində seminarlar, konfranslar keçirilib, Bakı şəhərində və Türkiyədə həkimlərimizin təkmilləşdirmə kursları təşkil edilib.

Bu gün MR-də 239 tibb müəssisəsi əhaliyə tibbi yardım göstərir. Bu müəssisələrin 216-sı kənd əhalisinin xidmətindədir. 74 həkim ambulatoriyası, 110 feldşer-mama mərkəzi fəaliyyət göstərir. Həmçinin 18 kənd sahə xəstəxanası, 7 əsas rayon xəstəxanası, 6 dispanser, 1 poliklinika, 1 stomatoloji poliklinika, körpələr evi. QİÇS-lə Mübarizə Mərkəzi, Təcili Tibbi Yardım Mərkəzi, Sanitar Karantin Müfəttişliyi, Diaqnostika Müalicə Mərkəzi fəaliyyətdədir. Bu tibb mərkəzlərində 749 həkim, 2825 orta tibb işçisi çalışır. MR-dəki həkimlərin 42 nəfəri Azərbaycan Respublikasının əməkdar həkimi, 6 nəfəri isə Naxçıvan MR-nın əməkdar həkimi fəxri adına layiq görülüb. Bundan başqa, 2 həkim ötən il «Tərəqqi» medalına layiq görülüb.

Tədbirdə nazirin çıxışı ətrafında səhiyyə işçiləri də çıxış edib, uğurlu işlərdən və mövcud nöqsanlardan söz açıblar. Tədbirin sonunda tibbi xidmətdə fərqlənən bir qrup əməkdaşa fəxri fərman və qiymətli hədiyyələr verilib.

## 40 İLDƏN SONRA ARXİVLƏRDƏ TAPDIĞIM ZİYALI



İnsan həyatı çox dramatik və gərgin anlarla dolu olur, ancaq hər kim çətinliyə dözürsə, mətinlik göstərirsə, onun son nəticəsi uğurlu olur. Bunun üçün çətinliyə, narahatlığa sinə gərən hər kəs qalib çıxır. Elə əslində əsl qəhrəmanın mənəvi gözəlliyi də müsbət anımlarla nəticələnir. İnsan ömrü bir möhtəşəm ağaca bənzəyir. Onun şaxəli budaqları, yarpaqları olur. İnsan elə ağac kimi qol-budaq atır, özü də bilmədən bir-ağac tək ömüründən gündə bir yarpaq düşür. İnsan bunu özü hiss etmir. Ancaq necə olsa da, insan bu ömrü yaşayır və gözünü açır ki, artıq yaşlaşıb. Fikirləşir ki, mən bu ötən ömrü necə yaşadım, kimin üçün nə etdim?

Solmaz gəncliyini özgə torpaqlarında keçirən, Böyük Vətən müharibəsində ən ağır günlər yaşayan azərbaycanlı gənclər olub. Çünki özgə torpağında qanlı döyüşlərdə kimsəsiz iştirak edərək, rus dilini bilmədən, silah atmağı bilməyən üçün bu çox müsbət cəhətlərdir. Buna dözüm, fədakarlıq, qətiyyətlik gərəkdir.

Müharibə mövzusu məni həmişə narahat edir, hər hansı bir igid qəhrəman barədə bir kağız parçası tapmaq, onun göstərdiyi

qəhrəmanlığı açıqlayıb öz elinə, obasına çatdırmaq mənim ən böyük sevincimə səbəb olur. Belə qəhrəmanlardan biri də mənim qonşum olmuş, ziyalı, yaxşı insan, ata-ananın istəkli oğlu Qurbanov Qurbanəli Aslan oğlu olub. Mən onun müharibəyə getməyini görməmişəm, ancaq 1948-ci ildə müharibə qurtardıqdan sonra görmüşəm, sinəsi orden və medallarla dolu, ucaboy, qəhrəman cüssəli igid kimi.

Qurbanəli Aslan oğlu 1905-ci ildə Naxçıvan mahalının Şərur rayonunun Sədərək kəndində kolxozçu ailəsində anadan olub.



O, 1931-ci ildə maliyyə-iqtisadiyyat texnikumuna daxil olmuş, 1933-cü ildə başa vurmuşdur.

1942-ci ilədək Ermənistanın Zəngibasar mahalının Uluxanlı və Qəmərli rayonunda ticarət müəssisələrində baş mühasib işləmişdir. Yoldaşı Şöhrəxanım Sədərəkdə bağça müdirəsi işləyirdi. Haliyədə o, yaşlı ağbirçək kimi nəvələri arasındadır, öyüd-nəsihət verir, nəvələrinə və oğul-qızlarına düzgün yol göstərir. O vaxt Qurbanəli bağçaya gələrdi və bizimlə bağçada səmimi görüşüb söhbət edərdi: «Bax, uşaqlar, sizdə böyüyüb orduda qulluq edəcəksiniz, qəhrəman

olacaqsınız, torpağı yağı düşməndən siz qoruyacaqsınız, onun üçün gərək dərslərinizi yaxşı oxuyasınız. Mənim oğlum Hamlet də sizin kimidir, ancaq o. söz vreib ki, oxuyacaq, ali təhsil alacaq, vətəninə xidmət edəcək».

Qurbanəli hər dəfə bizdən aralaşanda həyat yoldaşı Şöhrə xanıma dönə-dönə tapşırardı ki, bu uşuqlardan muğayat ol, onların yeməyini vaxtlı-vaxtında ver, qoy tez böyüsünlər».

Qurbanəlinin arxiv sənədlərində bildirilir ki, o, mühariəbədə 1942-ci ildə iki ordunun tərkibində olub. Ukrayna cəbhəsində vuruşub. 1943-cü ildə ağır döyüşlərin birində yaralanıb, hospitalda müalicə olduqdan sonra yenidən cəbhəyə qayıdıb. Müharibənin acı günləri, döyüşlər onu mətinləşdirib. Çətinliklərlə çox üzləşib, axır ki, qalib çıxıb, sağ-salamat Vətənə dönüb. Döyüşdə qazandığı xidmətlərə görə igid döyüşçü Qurbanəli «Qızıl Ulduz», «İgidliyə görə» medalı, Vətən Müharibəsi iştirakçısı II dərəcəli medalı vəİ.V.Stalinin şəxsi imzası ilə təşəkkür məktubu almışdır. Arxivdəki materiallardan məlum olur ki, Qurbanəli ən intizamlı, cəsur, qorxmaz döyüşçü olub. Komandirlərin verdiyi xasiyyətnamədə daha çox layiqli tapşırıqlar yerinə yetiribdir. Yoldaşları onu çox səmimi, yaxşı yoldaş kimi tanıyırmış. O, dediyindən dönməyən və verdiyi sözü dəqiq yerinə yetirən döyüşçü olub. O, döyüş yolunu Macarıstandan başlayıb Berlində başa vurub.

1952-ci ildə Qurbanəli Moskvada Ali Mühasibat kursunu bitirib Qazax rayonu Qarayazı kəndində vəhşi heyvanlar sovxozunda, meyvə tingliyi sovxozunda baş mühasib kimi çalışıb.

Qurbanəli Aslan oğlu 1976-cı ildə Qazaxda dünyasını dəyişib. Onun 4 oğlu, 4 qızı var. 9 nəvəsi və övladları ali təhsil almış, gözəl mütəxəssisdirlər.

Gözəl ata, mehriban ailə başçısı, savadlı mütəxəssis, yaxşı qonşu, hörmətli insan Qurbanəli Aslan oğlu daim qəlbimizdə yaşayacaqdır.

Fəxri dəmiryolçu qardaşı Şamil Qurbanovun dediklərindən:



«Atam Aslan dünyasını 1944-cü ildə dəyişib. Ailənin ağırlığı Qurbanəli qardaşımın üzərinə düşüb. Müharibədən qayıdan kimi işləməyə məcbur olub. Mənim, qardaşım Aloş və öz oğlu Hamletin qayğısını o çox çəkib. Təhsilimizlə maraqlanıb, maddi və mənəvi köməklik edib. Qurbanəli məni çox istəyirdi. O, xoş xasiyyətli, çox mülayim və səmimi idi. Anamız Mülayimin heç bir sözündən çıxmazdı. Anam nə desə, nə məsləhət görsəydi, o da olmalı idi. O, Qazaxda işləsə də mənə və oğlu Hamletə hər ay pul göndərərdi. Bakıya gələndə dərslərimizlə maraqlanar və yaşadığımız evə gələrdi. Heç vaxt əliboş gəoməzdi. Biz ona çox borcluyuq, onu daim anırıq. Onu qəlbimizdə əbədi yaşadacayıq».

Xatırladım ki, Aslan və Mülayim Qurbanovların yetişdirib hasilə gətirdiyi üç ədəd tut ağacı o ağır illərdə Sədərəkdə yüzlərcə ailəni aclıqdan qurtarmışdır. Ona görə də bu iki xeyirxah insanlara Sədərəklilər öz qəlbində onlara heykəl ucaltmışlar.

# ARAŞDIRMALAR UĞURLU NƏTİCƏLƏR VERƏNDƏ...

*BDU-nun professoru Əli Əliyevin 40 illik elmi fəaliyyəti çalışdığı universitetin rəhbərliyi tərəfindən qiymətləndirilib.*




Bu gün elmin inkişafında alimlərimizin əməyi həqiqətən təqdirəlayiqdir. Gecəli-gündüzlü, narahatlıq bahasına başa gələn elmi nəticələr, yeni tədris kitabları, elmi məqalələr alimlərimizin əvəzsiz xidmətləri sayəsində meydana gəlir. Elə alimlərimiz var ki, ali təhsil ocaqlarının çiçəklənməsi üçün var qüvvəsi ilə çalışır, lazımi şərait yaradır, yeni laboratoriyalar açır, oranı yeni texniki avadanlıqlarla təchiz edir. Çalışır ki, ali təhsil ocağında təhsil alan tələbələr hərtərəfli bilik əldə etsin.

Belə alimlərimizdən biri də BDU-nun professoru Əli Əliyevdir. Ona yuxarıda sadaladığımız bu şəraiti yaradan isə gözəl alim, hamının uğuruna sevinən, əsl vətənpərvər, akademik Abel Məhərrəmovdur. Elə 70 yaşı tamam olan BDU-nun biologiya fakültəsi «İnsan və

heyvanfiziologiyasının və biostimulyatorlar» laboratoriyasının müdiri, biologiya elmləri doktoru, professor Əli Əliyevə yaxından köməklik edən, laboratoriyası üçün lazımi şərait yaradan da BDU-nun rektoru, akademik A.Məhərrəmov olub.

Professor Ə.Əliyev BDU-nun uğurlu nəticələrindən iftixar hissi ilə ürəkdolusu danışır.

Tanıtma: Professor Əli Həsən oğlu Əliyev 1938-ci il Sədərəkdə doğulub boya-başa çatıb. 1961-ci ildə orta məktəbi qurtaran kimi əvvəlcə Naxçıvan tibb texnikumunu bitirib sonra Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsinə daxil olub, 1966-cı ildə həmin fakültənin insan və heyvan fiziologiyası ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib.

1968-1970-ci illərdə aspirant olub və akademik A.İ.Qarayevin rəhbərliyi altında elmi tədqiqatlar aparıb.

Nəhayət, 1970-ci ildə Ə.Əliyev «Beyin qabığı tonusunun görmə, eşitmə və mülahizələr analizatorlarının işdən çıxarılması ilə aşağı salınmasının interoseptiv qlukemik reaksiyalarınıa təsiri» mövzusunda namizədlik dissertasiyası müdafiə edərək biologiya elmləri namizədi alimlik dərəcəsi alıb. Elə 1970-ci ildən həmin kafedrada baş laborant, baş müəllim, dosent vəzifələrində çalışıb. Bu illərdə Ə.Əliyev gərgin elmi-pedaqoji fəaliyyətlə məşğul olub, tədqiqatlar aparmışdır.

1992-ci ildə elmin daha yüksək zirvəsinə ucalmaq istəyən Ə.Əliyev apardığı elmi-tədqiqatları ümumiləşdirərək akademik A.İ.Qarayev adına Fiziologiya İnstitutunda AMEA-nın müxbir üzvü, biologiya elmləri doktoru, professor T.M.Ağayevin və professor T.D.Qayıbovun məsləhətləri ilə «Postnatal ontogenezdə analizatorların və epifizin funksiyasının pozulmasından sonra qlikemik reaksiyaların intero və eksteroseptiv tənzimi» mövzusunda doktorluq dissertasiyasını müdafiə edib və biologiya elmləri doktoru elmi adına layiq görülüb. Ə.Əliyev 1993-cü ildən BDU-nun insan və heyvan fiziologiyası kafedrasının professoru və 1997-ci

ildən isə həmin kafedranın və biostimulyator ETL-in müdiri vəzifəsində işləyir.

Professor Ə.Əliyev 300-dən çox elmi məqalənin, 3 dərs vəsaitinin, 4 dərsliyin, «Həzmin fiziologiyası», o cümlədən orta məktəblərin 9-cu sinfi üçün «Biologiya», «İnsan» dərsliyinin rus dilində (2007), «İnsan vizion diski» (2007), «İnsan anatomiyası» və «İnsan və heyvan fiziologiyası» ali məktəblər üçün dərslik (2007) və s. kitabların müəllifidir.

Professor Ə.Əliyev Azərbaycan Təhsil Nazirliyinin Metod Şurasının, Fakültə Elmi Şurasının və AMEA akademik A.İ.Qarayev adına Fiziologiya İnstiutunun nəzdindəki Dissertasiya Şurasının üzvüdür.

Onun rəhbərliyi ilə 8 nəfər namizədlik dissertasiyası müdafiə etmiş, hal-hazırda 8 dissertant və aspirantın elmi işinə rəhbərlik edir.

Professor Ə.Əliyev ölkə daxilində və xaricində keçirilən elmi konfranslarda, simpoziumlarda iştirak edir, eyni zamanda keçmiş SSRİ-nin Fizioloqlar Cəmiyyətinin XIV Qurultayının tərkibində fəal iştirakçı kimi təşəkkür alıb, «XXI əsrin tanınmış alimi» beynəlxalq diplomu ilə təltif olunub, «Vektor» Beynəlxalq Elm Mərkəzi Mükafat Komitəsinin qərarı ilə «Azərbaycanın tanınmış alimləri» beynəlxalq layihəsinin laureatıdır (Bakı, 2003). Onun rəhbərlik etdiyi kafedranın və biostimulyatorlar ETL əməkdaşlarının ən böyük nailiyyətləri uzun illərdən bəri apardıqları elmi-tədqiqat işinin nəticələrinin dünyanın elmi ictimaiyyətinin mötəbər elmi jurnallarda, Rusiya, Türkiyə, İran, o cümlədən ABŞ-ın NATO elmlər seriyasında olan hesabat kitablarında dərc olunub.

Bundan başqa, professor Ə.Əliyevin apardığı tədqiqat «Qapalı şəraitdə yetişdirilən quşların məhsuldarlığının artırılması üsulu» mövzusu üzrə ixtiraya görə 2007-ci ildə Azərbaycan Respublikası Standartlaşdırma Metrologiyası və Patent üzrə Dövlət Agentliyindən rəsmi sənəd alıb.

«Azərbaycan əraziisndə miqrasiya edən quşların yaz və payız köç vaxtlarında işıqlanma qanunauyğunluğu» mövzusunda əsərinə görə müəlliflik hüququ şəhadətnaməsinə (2007) layiq görülüb.

Bu günlərdə ARTN, Bakı Dövlət Universiteti professor Əli Əliyevi 2007-ci ildə qazandığı elmi uğurlara görə Fəxri Fərmanla təltif edib.

Biz professor Ə.Əliyevi qazandığı uğurlara görə və 70 yaşının tamam olması münasibətilə təbrik edir, ona yeni uğurlar diləyirik.

## ALİMİN ÖMÜR YOLU



Ömür yolu heç də həmişə hamar və rəvan olmur. İnsan ömrü saysız-hesabsız həyat münaqişələri ilə üzləşir. Hər iki halda və ayrıca şəraitdə insan bu münaqişələri özü həll etməli, həyat cəngəlliklərindən özü-özünə yol açmalı olur. Belə hallarda möhkəm xarakterli, mətin iradəli, həyatın bütün dolanbaclarında fəal həyat mövqeyində dayanıb həm qələbə, həm də uğursuzluq şəraitində öz məğrurluğunu və əzəmətini itirməmək, həyat prinsiplərinə axıradək sadiq qalmaq insana nəsib olan ən böyük iradə qüdrəti, şəxsiyyət bütövlüyü, onu yenilməz edən əxlaqi keyfiyyətdir.

Belə ömür yolu keçən ziyalılarımızdan biri də kənd təsərrüfatı elmləri doktoru, professor, Beynəlxalq Akademiyanın akademiki, Amerika Hidrologiya İnstitutunun «Peşəkar hidroloq» tituluna layiq görülmüş Hamlet Qurbanəli oğlu Aslanovdur.

Onun yaradıcılığı, təşəbbüskarlığı, prinsipiallığı, nöqsanlara qarşı barışmamazlığı fəal həyat mövqeyinrn mühüm təzahür forması olmuş, elmi-pedaqoji fəallığı ancaq tərəqqiyə doğru yönəlmişdir. Onun ömür kitabı bir növ təcrübə məktəbidir.

Müstəqil həyata qədəm qoyan, öz ömrünü nizamlamağa, onun istiqamətini, nəyi özünə həyat idealı və məqsədi seçmək, nəyin uğrunda mübarizə aparmaq, nəyə nail

olmağa çalışmaq kimi suallara cavab axtaran hər bir gənc üçün bu kitab qiymətli bir xəzinədir.

H.Q.Aslanov 1959-cu ildə Azərbaycan Politexnik İnstitutunun «Hidromeliorasiya» fakültəsinə daxil olmuşdur. O, ikinci kursdan təhsildəki müvəffəqiyyətinə və ictimai fəaliyyətinə görə V.İ.Lenin təqaüdünə layiq görülmüşdür. 60-cı illərdə Azərbaycan Politexnik İnstitutunun tələbə təşkilatları rəhbərlərindən olan H.Aslanov 1963-cü ildə Azərbaycan Həmkarlar Təşkilatının XI qurultayına nümayəndə seçilmişdir. Həmin ildə o, Azərbaycan tələbə-gənclərinin yeganə nümayəndəsi kimi Moskvaya SSRİ Həmkarlar İttifaqının XIII qurultayına nümayəndə seçilmişdir.

Fitri qabiliyyətli, elmə olan sonsuz marağı hələ tələbəlik illərində onu professor S.H.Rüstəmovun rəhbərlik etdiyi respublikamızın yerli çaylarının hidrologiyasının tədqiqi ilə məşğul olan ekspedisiyanın, sonralar isə Azərbaycan SSR Nazirlər Soveti yanındakı Hidrometeoroloji Xidmət İdarəsinin Böyük və Kiçik Qafqaz dağlarının Azərbaycan hissəsindəki çay yataqlarında sel hadisələrini öyrənən ekspedisiyalarının iştirakçısı olmuşdur.

1965-ci ildə AzPİ-ni fərqlənmə diplomu ilə bitirən H.Aslanov İnstitutun Hidromeliorasiya kafedrasında müəllim saxlanılmışdır.

Elmə olan marağı 1966-cı ildə onu Moskvada Ümumittifaq Su Təchizatı Kanalizasiya, Hidrotexniki qurğular və Mühəndis Hidrogeologiyası İnstitutunun aspiranturasına gətirmişdir. Aspiranturada apardığı tədqiqatlar onun böyük elmi fəaliyyətinin başlanğıcı olmaqla həm də onun gələcək elmi fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirdi.

H.Q.Aslanov 1970-ci ildə dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək texniki elmlər namizədi alimlik dərəcəsi almış, AzPİ-də baş müəllim kimi pedaqoji fəaliyyətini davam etdirmişdir. 1975-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutu təşkil olunduqdan sonra burada baş müəllim, dosent vəzifələrində çalışmışdır.

Bu illərdə respublika ərazisində aparılan böyük quruculuq işləri, suvarılan ərazilərin genişləndirilməsi, şorlu torpaqların sağlamlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər, təkmilləşmiş və təbii şəraitə uyğun əkinçilik sisteminin yaradılması, insan üçün sağlam mühitin qorunub saxlanılması üzrə elmi baxımdan əsaslanmış kompleks tədbirlərin hazırlanıb həyata keçirilməsi şəraitində o, tədrisdəki pedaqoji fəaliyyətilə yanaşı, ölkə ərazisində yaradılan bir sıra iri hidrotexniki və meliorativ tikililərin (Baş Mil kanalı zonasında torpaqların meliorasiyası, Yuxarı Şirvan kanalının Ağsu qolunun tikintisi, Naxçıvan MR-in Vayxır su qovşağı tikintisi və ətraf ərazilərdə suvarmanın layihəsi və s.) layihələrinin iştirakçısı olmuşdur.

Alimlik dərəcəsi aldıqdan sonra H.Aslanov Azərbaycanın ayrı-ayrı coğrafi zonalarında təbii ekosistemlərin vəziyyəti, onların insan fəaliyyətinə mənfi təsiri nəticəsində deqradasiyası, ətraf mühitin çirklənməsi və mühafizəsi və digər mövzularla respublika və xarici ölkələrin nüfuzlu jurnallarında elmi məqalərlə çıxış etmiş, ali məktəblər üçün bir sıra dərslik və dərs vəsaiti nəşr etdirmişdir. Bu devizdə onu Azərbaycanın xalq təsərrüfatı üçün xüsusi əhəmiyyət kəsb edən bir məsələ – dağlıq ərazilərin meliorasiyası probleminin həlli maraqlandırmışdır. Bu məqsədlə o, dağlıq və dağətəyi zonalarda kənd təsərrüfatının, xüsusilə əkinçiliyin potensial imkanlarını aşkara çıxarmaq, sıvarılan və dəmyə sahələrin məhsuldarlığını yüksəltmək, torpaq, iqlim və su ehtiyatlarından səmərəli istifadə etməklə ayrı-ayrı dağlıq rayonların istehsal və sosial infrastrukturunun inkişafına kömək etmək, buranın təbii ehtiyatlarını qiymətləndirməklə onlardan torpaqların yaxşılaşdırılması üçün aparılan meliorativ tədbirlərdə istifadə etməklə bağlı tədqiqatlara başlamışdır.

Bu istiqamətdə aparılan tədqiqatların «Dağətəyi torpaqların suvarma meliorasiyasının aqroiqlim baxımdan əsaslandırılması» mövzusunu əhatə edən bir qismi 1988-ci

ildə Sosialist Dövlətlərin Qarşılıqlı İqtisadi Yardım şurası tərəfindən tətbiq üçün qəbul edilmişdir.

H.Aslanov 1998-ci ildə apardığı uzunmüddətli tədqiqatlarını yekunlaşdıraraq «Azərbaycan Respublikasının dağlıq ərazilərinin torpaqlarının meliorasiyasının hidrometeoroloji baxımdan əsaslandırılması» mövzusunda dissertasiya işini müdafiə etmiş, kənd təsərrüfatı elmləri doktoru elmi dərəcəsi almışdır.

Professor H.Aslanov 2002-ci ilin noyabrında Amerika Hidrologiya İnstitutunun Azərbaycan Respublikası üzrə təmsilçisi seçilmişdir. Sonrakı illərdə o, həmin institutla sıx elmi əməkdaşlıq əlaqələri yaratmışdır. 2004-cü ildə AHİ-nin Sertifikat Şurası səsvermə yolu ilə prof. H.Aslanovu Şuranın qiyabi üzvü seçmiş və onu «Peşəkar Hidroloq» tituluna layiq görmüşdür. Həmin ili o, Beynəlxalq Akademiyanın üzvü seçilmişdir.

Ölkə Prezidenti yanında Ali Attestasiya Komissiyası 2005-ci ildə ona professor elmi adı vermişdir.

Prof. H.Aslanov respublikamızda və xaricdə (Rusiya, ABŞ, İran İR) dərc edilmiş 150-yə yaxın elmi işin, o cümlədən, 10-dan çox elm dərslik, monoqrafiya və kitabların müəllifidir. Onun ali məktəbdə 40 illik pedaqoji fəaliyyəti dövründə yetişdirdiyi yüzlərlə mütəxəssis hazırda respublikamızda, yaxın və uzaq xarici ölkələrdə elmin və təsərrüfatın müxtəlif sahələrində çalışmaqdadırlar.

O, doktorluq işlərinin məsləhətçisi, namizədlik elmi işlərinin rəhbəri kimi ölkə üçün elmi kadrların yetişdirilməsində də xüsusi rol oynayır. Hazırda AAK-ın Milli Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutunda fəaliyyət göstərən doktorluq dissertasiyaları üzrə İxtisaslaşdırılmış Müdafiə Şurasının üzvüdür.

Hamlet müəllim özünün geniş təcrübəsi, dərin biliyi, izgüzarlığı, prinsipial vətəndaşlıq mövqeyi ilə onu tanıyanların dərin hörmətini qazanmışdır.

Professor Hamlet Aslanov 13 yanvar 2009-cu ildə Azərbaycan Respublikası Təhsil naziri Misir Mərdanovun əmri ilə «Yüksək qüsursuz ixtisaslı kadrların hazırlanması sahəsində və elmi-pedaqoji fəaliyyətinə» görə fəxri fərmanla təltif olunub.

İkinci bir şad xəbər alimin barəsində isə professor H.Aslanovun və k/t e.n. Teymur Səfərli ilə birlikdə yazıb ərsəyə gətirdikləri ən qiymətli monoqrafiya kitabının işıq üzü görməsidir: «Azərbaycanın neftlə çirklənmiş torpaqlarının rekultivasiyası və mənimsənilməsi». Bu kitab çox əhəmiyyətli bir kitab kimi mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdir və gənc aspirant, dissertant və elm ilə məşğul olanlar üçün daha qiymətlidir.

## ALİMLƏRİN NAXÇIVAN XALQINA TƏBRİKİ

## NAXÇIVAN MƏNİM HƏYATIMDIR

**Professor Paşa Zamanovun ürək sözləri:**



- Mən əlli ildən artıqdır ki, elm yolunda çalışıram. Mənim ürəyim hər an, hər dəqiqə qədim Naxçıvan torpağı, havası, təbiəti ilə döyünür. Çünki qədim Naxçıvan torpağı öz tarixi ilə, tarixi abidələri ilə, mədəniyyəti ilə, mineral suları ilə dünya miqyasında tanınır.

85 ildir Naxçıvan MR yaşayır, tikir, qurur, abadlaşır, inkişaf edir. Bu, biz alimləri ürəkdən sevindirir.

Qədim Naxçıvan torpağı çox dahilər yetirib, elm xadimləri, mədəniyyət xadimləri harada olurlarsa-olsunlar, bu torpağın başını uca ediblər.

Mən 85 illik yubileyi münasibətilə naxçıvanlıları, elm adamlarını, kənd təsərrüfatı işçilərini, yazıb-yaradanları, bütün ziyalı mütəxəssisləri ürəkdən təbrik edirəm, xalqıma uğurlar diləyirəm. Ən əsası isə başının üstündə aydın səma arzulayıram. Naxçıvan mənim həyatımdır. 83 ildir ki, mən o torpağın havası, suyu ilə yaşayıram.

Qoy Naxçıvan MR bundan sonra daha da gözəlləşsin, dünyada tanınsın, əhalisi daha da firavan yaşasın.

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 85 İLLİK YUBİLEYİNƏ ALQIŞ!



Şərqin əzəmətli və möhtəşəm qapısı sayılan Naxçıvan bu günlər fərəhli çağlarını yaşamaqdadır. Kəşməkəşli tarixi keçmişinə, yaşarı milli qəhrəmanlıq ənənələrinə güvənən Naxçıvanın iqtisadiyyat, mədəniyyət, elm və təhsil sahələrində böyük uğurlara imza atması təbiidir. Hal-hazırda bu şanlı diyar bir sıra taleyüklü məsələlərdə qabaqcıl dünya ölkələri ilə sıx əlaqələr qurur və geniş inteqrasiya edir. Naxçıvan möhtəşəm tarixə malik bir diyar olaraq yadellilərə, yağı düşmənlərə qarşı daim sinə gərmiş, şəhidlər vermişdir. Vətən məhəbbəti, yurd sevgisi, torpaq uğrunda şəhid olmaq eşqi bu məmləkətin insanlarının ruhundadır. Qəhrəmanlıq keçmişini tarixləşdirən əzəmətli qalalar, çox qədim və zəngin memarlıq inciləri olan minarələr və türbələr, saysız-hesabsız maddi mədəniyyət abidələri, barlı-bəhərli təbiəti, göz oxşayan füsünkar gözəlliyi Nəxşicahanın yaraşığıdır. Dahi ədiblər, şairlər, öyünməli şəxsiyyətlər ölkəsidir Naxçıvan. Böyük Öndər Heydər Əliyevin vətənidir Naxçıvan. Möhtərəm prezidentimiz cənab İlham Əliyev 2008-ci ildə Ümummilli lider Heydər Əliyevin mövludunun 85-ci il dönümü ilə bağlı sərəncam imzaladı. 2009-cu ildə isə Naxçıvan Muxtar Respublikasının yaranmasının 85-illiyi haqda sərəncam verib. Yubileylərin bu kimi ardıcıllığında bir

qanunauyğunluq var və həm də bu görünür rəbbimizin istəyincədir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının möhtəşəm tarixi fenomenal şəxsiyyət Heydər Əliyevin tale yolu ilə üzvi vəhdət təşkil edir. İllər, qərinələr ötdükcə bu vəhdətin önəmi daha aydın görünəcək. Naxçıvan günbəgün, anbaan dəyişir, inkişaf edir, təravətlənir, gözəlləşir. Bu şanlı diyarın 85-illiyinin yubiley təntənəsi, əlbəttə ki, tariximizi və taleyimizi yeni baxış bucağı altında dəyərləndirmək imkanı verəcək. Çiçəkləndikcə, dünya arenasında özəl yerini tutduqca dostlarını hədsiz sevindirəcək, düşmənlərini pərişan edəcək bizim Naxçıvan.

Qucağı dahilər beşiyi, qeyrət qalası Naxçıvan Muxtar Respublikası uğurlarına min əhsən!!!

**Himalay Qasımov**
**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**
**«Azərbaycan və dünya ədəbiyyatı tarixi»**
**kafedrasının müdiri, filologiya elmləri**
**doktoru, professor.**

# MƏN NAXÇIVANLA NƏFƏS ALIRAM

**Əliyev Əli Həsən oğlu**
*Professor, BDU-nun fiziologiya kafedrasının müdiri, laboratoriya müdiri*



Mən Sədərəkdə doğulub, Şərurda böyümüşəm. Ancaq mənim üçün Naxçıvanın hər guşəsi əzizdir. Onun füsunkar təbiəti, «Qızıl» medal almış «Sirab», «Badamlı», «Darıdağ» mədən suları dünya şöhrətlidir. Bu, bizim fəxrimizdir. Görkəmli dövlət xadimi, əvəzedilməz liderimiz Heydər Əliyev torpağıdır, vətənidir. Mən həyatım boyu bu ulu öndərə minnətdaram ki, Naxçıvanı bəladan, düşmən əlindən qurtardı. Biz də onun yolunu davam etdiririk. Radioda, mətbuatda onun ideyalarından ağızdolusu danışanda rahatlıq tapırıq. Bu gün hörmətli Prezidentimiz İlham Əliyevi dəstəkləyirik. O da atası kimi qədim Naxçıvan diyarının çiçəklənməsi üçün bütün köməklikləri edir.

Mən Naxçıvan MR-in 85 illik yubileyi münasibətilə doğma torpağımın fədakar insanlarını, ziyalılarını səmimi qəlbdən təbrik edirəm. Ümidvaram ki, Naxçıvan rəhbərliyi bu diyarın daha da inkişafı üçün bütün lazımi işləri görəcək.

Naxçıvan torpağı qarşısında baş əyirəm, o torpaq uğrunda canımı verməyə hazıram. Mən Naxçıvanla nəfəs alıram.

# MƏN NAXÇIVAN TORPAĞI İLƏ FƏXR EDİRƏM

**Professor Hamlet Aslanov:**



- Mən 40 ildən çoxdur ki, qədim Naxçıvan torpağının təbiəti, havası ilə yaşayıram. Elm sahəsində çalışıram. İçdiyim o buz bulaqların suyundan aldığım ilham məni həmişə şux saxlayır. Bütün varlığımla mən Naxçıvan torpağına bağlıyam. Orada böyüyüb boya-başa çatmışam, çörəyini yemiş, suyunu içmişəm.

85 illik yubileyini qeyd edən Naxçıvan MR bu gün dünyada tanınır. Bu, biz alimləri çox sevindirir. Buraya xarici ölkələrdən gələn alimlər xoş təəssüratla qayıdırlar. Naxçıvan MR-in 85 illiyi münasibətilə mən o torpağın insanlarını, ziyalılarını, kənd əməkçilərini ürəkdən təbrik edirəm. Qoy o insanların üzünə həyat yenidən gülsün...

Qədim Naxçıvan öz qədim şöhrətini tapsın, qursun, tiksin, yaşıllıqlar yaratsın, əhalisi xoş günlər görsün, düşmənə layiqli cavab versin. Mən Naxçıvanla fəxr edirəm.

## ÖMÜR VƏFA ETSƏYDI



Hüseyn Sadıqovun həyatda olmayan bir şagirdim kimi söhbət açmağa çətinlik çəkirəm. Heç kəs onun yoxluğuna inana bilmir, çünki o həm gözəl insan və ziyalı, qayğıkeş ailə başçısı, sədaqətli işçi, kimi onun ölümünə inanmazdılar. Hüseyn geniş qəlbli, daxili aləmi var idi.

Yaşadığı həyata başqalarından fərqli idi. Nədənsə ona mən dərs deyəndə də, sonrakı illərdə vəzifədə də işləyəndə də heç kimə oxşamırdı, heç kimin fikrini təkrarlamazdı...

Yaşasaydı 50 yaşını qeyd edəcəydik, amma...

2007 ci- il, yanvar ayında şaxtalı, ayazlı havada bayırda adamlara az-az rastlanırdı. Şaxtalı qış, hər kəsi soba ətrafına yığmışdı. Amma qəfil xəbər insanları bayıra çıxmağa sövq etdi. Bu xəbər qocadan – cavana, hamını bir yerə yığdı. Görəsən, bu şaxtalı havada insanlar nə üçün bir yerə yığılmışdılar!?

Xeyir, bu nə müharibə, nə toy, nə də mitinq idi. Sədərəklilər neçə il onlara xidmət etmiş, ictimaiyyət arasında böyük nüfuza malik, gözəl ailə başçısı, çox səmimi, öz işini bilən, yaxşı mütəxəsis, dəyərli insan Hüseyn Sadıq oğlu Sadıqovun qəfil ölüm xəbərini eşidib onunla vidalaşmaq üçün yaşadığı mənzilin ətrafına yığılmışdılar. Sədərək sükuta qərq olmuşdu. Bu sözün əsl mənasında sədərəklilər üçün, eləcə də Sadıqovlar ailəsi üçün böyük itgi idi.

Həyatını "el içində rəhmət qazanmaq ən böyük səadətdir" prinsipi üzərində qurmuş Hüseyn Sadıqov böyük

insan kütləsinin müşaiyəti ilə son mənzilə yola salındı. Amma Hüseyn Sadıqov cismən aramızdan ayrılsa da, onun ruhu, xatirəsi hər zaman Hüseynsevərlərin qəlbində daim yaşayacaq. Belə yerdə atalarımızın bir sözü yadıma düşür: "Elə yaşa ki, öləndə ölmə".

Bəli, Hüseyn Sadıq oğlu Sadıqovu, 18 yanvar, 2007 - ci ildə vəzifə başında olarkən qəfil əcəl aramızdan apardı.

O, 1957 – ci ildə Naxçıvan MR, Sədərək rayonunun Sədərək kəndində anadan olmuşdu. Orta təhsili də elə 1964-74-cü illlərdə doğma kəndində almışdı. Hüseyn Sadıqov orta məktəbdə oxuyarkən əlaçı, sinif nümayəndəsi və davranışlı şagird kimi yoldaşlarından fərqlənirdi. Bu keyfiyyətlərə görə o, 9-cu sinifdə oxuyarkən məktəbdə o vaxtkı komsomol təşkilatının katibi seçilmişdir. Orta təhsili müvəffəqiyyətlə başa vurduqdan sonra H. Sadıqov 1975 – cil ildə indiki Gəncə Kənd Təsərrüfatı Akademiyasının meyvə-tərəvəz və üzümçülük fakültəsinə daxil olmuşdu. Burada da o, öz bilik, bacarıq və davranışı ilə yoldaşlarından fərqlənmiş, sinif nümayəndəsi olmuş, ictimai fəaliyyətlərdə fəal iştirak etmişdi.

1980- cı ildə Ali məktəbi bitirdikdən sonra təyinatla Şərur rayonuna gəlir. Elə həmin il gənc mütəxəsis kimi Sədərək üzümçülük sovxozunda sahə aqranomu, sonra komsomol təşkilatının katibi , baş aqranom, üzümçülük sovxozunda direktor müavini vəzifələrində çalışmışdı. Öz vəzifəsini layiqincə yerinə yetirən, başqalarından həmişə fərqlənən Hüseyn Sadıqov 1989-99 cu illərdə Sədərək rayonunda Sədərək kənd XDMİK-nin sədr müavini işləmişdi. Sədərəklilər, böyük etimad qazandığı üçün onu 1991-ci ildə rayon sovetinə deputat seçirlər. Rəhbərlik Hüseyn Sadıqovun təşkilatçılıq qabiliyyətinə bələd olduğu üçün onu yeni salınmış Heydərabad qəsəbəsində icra nümayəndəsi kimi mühüm vəzifəyə irəli çəkmişdi. Bu işdə Hüseyn Sadıqov daim qəsəbə sakinləri ilə ünsiyyətdə olmuş, onların problemləri ilə maraqlanmış, tez bir zamanda həlli vacib olan problemləri

rayon rəhbərliyinin diqqətinə çatdırmış, və çox zaman onların həllinə nail olmuşdu. Qəsəbədə sakinlərin hamısı ondan razılıq edirdi. Onun bir sözü iki olmazdı. Kollektiv və sakinlər arasında qəsəbənin inkişafı üçün əlaqədar təşkilatlarla daim əlaqədə olar və qəsəbənin günü-gündən abadlaşmasına çalışardı. 73 ailənin qəsəbədə məskunlaşmasıvə onların hər birinə torpar sahəsinin ayrılmasında Hüseyn Saıqovun əməyi az olmamışdı. Eyni zamanda rayonda əkinçilik və üzümçülüyün inkişafında da onun böyük rolu olub. Onun təşkilatçılığı sayəsində Heydərabad qəsəbəsində 2000-ci ildən başlayaraq sakinlərin 2100 ha sahədə dənli bitkilərin əkilib becərilməsi şəxsən onun təşəbbüsü ilə həyata keçirilmiş və bunun nəticəsində sakinlər xeyli miqdarda gəlir əldə etmişdi. Bununla yanaşı qəsəbədə heyvandarlığın inkişaf etdirilməsinə köməklik göstərən icra nümayəndəsi Hüseyn Sadıqova sakinlər öz minnətdarlığını bildirmiş və onun sayəsində qəsəbədə təkcə qoyunların sayı 1143 başa çatdırılmışdı. 2003-cü ildə Heydərabad qəsəbəsində 14 qaçqın və köçkün, müharibə əlili ailəsinin yeni binalara köçməsində Hüseyn Sadıqovun əməyi az olmamışdı. Qəsəbədə 3 artezyan quyusunun vurulması da Hüseyn Sadıqovun əməyinin nəticəsi idi. Məhz bu artezyanlar hesabina sakinlər öz həyətlərində gül-tərəvəz əkmək, bağ-bağça salmaq imkanı qazanmışlar.

Qəsəbədə "Heydər bağı", "Heydər bulağı" nın salınması sakinlərin istirahəti üçün geniş imkanlar yaratmışdır. Bu işdə Hüseyn Sadıqov fəal iştirak etmişdi. Sakinlərlə aparılan mütəmadi işin nəticəsi idi ki, qəsəbə gunu-gündən gözəlləşir.

Ömür vəfa etsəydi, hər kəsin xoşbəxt yaşamasına, işdə uğur qazanmasına sevinən Hüseyn Sadıqov yenicə təyin olunduğu vəzifədə - Sədərək rayonu İcra Hakimiyyətində Siyasi şöbənin müdiri və Sədərək rayonu həmkarlar İttifaqı Təşkilatının sədri kimi Sədərək üçün, xüsusilə Heydərabad qəsəbəsi üçün möhtəşəm planlar həyata keçirəcəkdi.

Hüseyn Sadıqov öz sənətini, peşəsini ürəkdən sevirdi. O, həmişə təbiət gözəlliyinə ciddi fikir verir və bunu qəsəbə sakinlərindən də tələb edirdi. Təbiətə vurğunluq, ümumiyyətlə bir çox müsbət keyfiyyətlər, Hüseyn Sadıqova, atası, vaxtilə briqadir işləmiş, el arasında böyük nüfuza malik bir şəxs kimi tanınmış Sadıq kişidən keçmişdi.

Çox etikalı, sakit təbiətli, alicənab, öz işini bilən Hüseyn Sadıq oğlu Sadıqova, ömür 13 gün də vəfa etsəydi əlamətdar 50 illik yubileyini qeyd edəcəkdi. Iki oğlu, bir qızı var.

Onun xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaqdır.

Allah rəhmət eləsin!

## 2008-Cİ İLİ SƏDƏRƏK RAYONU UĞURLU NƏTİCƏLƏRLƏ BAŞA VURUB



Respublikamızın hər eyrində olduğu kimi MR-nın Sədərək rayonunda 2008-ci ilin yekunlarına həsr edilmiş tədbir keçirilib. Tədbiri Sədərək RİH-in başçısı İbrahim Məmmədov açmış və geniş məruzə ilə çıxış etmişdir.

Sədərək RİH-in mətbuat xidmətindən verilən məlumata əsasən icra başçısının məruzəsindən bəzi faktları əldə etdik.

Tədbirdə qeyd olunub ki, Sədərək RİH il ərzində 24 iclas keçirib. Bu dövr ərzində 33 sərəncam verilmişdir. 2008-ci ildə rayonda investisiyanın həcmi 12 milyon 825 min 600 manat olmuşdur.

Naxçıvan MR-da geniş vüsət alan tikinti-quruculuq işləri Sədərək rayonunu da əhatə etmişdir. İl ərzində

Heydərabad qəsəbəsində Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkı, rayon prokurorluğunun və məhkəməsinin, Milli Təhlükəsizlik Nazirliyi Sədərək rayon şöbəsi, YAP



*Sədərək Rayon İcra Hakimiyyətinin inzibati binası*

Sədərək rayon təşkilatının inzibati binaları istifadəyə verilmişdir. Sədərək və Qarağac kəndlərində 2 əlil və 2 şəhid ailəsi onlar üçün inşa olunmuş fərdi yaşayış evinə köçmüşlər. Sədərək kənd qəbiristanlığında abadlıq işləri başa çatdlırılmışdır.

Rayon ərazisində 10700 km2 sahədə abadlıq işləri aparılaraq bardur və kilit daşlar döşənmiş, piyada yolları səliqəyə salınmışdır. 2008-ci ildə rayonda 1 milyon 214 min 261 manatlıq tikinti-abadlıq işləri görülmüşdür. Heydərabad qəsəbəsində hərbçilər üçün inşa olunan 15 mənzildən ibarət 8 ədəd ikimərtəbəli yaşayış binasının, həmçinin üçmərtəbəli əsgəri məişət yaşayış kompleksinin istifadəyə verilməsi bu qəsəbəyə xüsusi yaraşıq vermişdir. Əhalinin içməli su ilə təmin edilməsi 3900 m məsafədə su boruları yeniləri ilə əvəz edilməsi 150 evi əhatə etmişdir. Rayonda kənd təsərrüfatı bolluğu yaradılması istiqamətində Azərbaycan Respublikasının Prezidentinin 23 yanvar 2007-

ci il tarixli sərəncamına uyğun olaraq 2008-ci ildə bu istiqamətdə iş davam etdirilərək 757 nəfər torpaq mülkiyyətçisinə apardığı əkinlərə görə 115 min 474 manat yardım edilmiş, 360 ton gübrə verilmiş, 120 nəfər torpaq mülkiyyətçisinə kredit verilmişdir. Bunlarla yanaşı, 3 ədəd kənd təsərrüfatı texnikası, həmçinin «Azərlizinq»ə məxsus müxtəlif texnikalar torpaq mülkiyyətçilərinin xidmətinə verilmişdir.

Rayonda ötən il ərzində 3521 hektar sahədə əkin keçirilmişdir. Rayon üzrə 478 ton meyvə, 1235 ton üzüm, 4326 ton tərəvəz, 2172 ton bostan məhsulları, 335 ton dən qarğıdalı, 73,6 ton günəbaxan, 720 ton kartof istehsal edilmişdir. 1493 hektar buğda sahəsindən rayon üzrə 3825 ton məhsul əldə edilmişdir ki, məhsuldarlıq hər hektardan 25,6 sentner olmuşdur. 454 hektar arpa sahəsindən 1220 ton məhsul götürülmüşdür. Rayon üzrə ötən il ərzində 4945 ton taxıl istehsal edilmişdir. Ötən ildə 80 hektar şəkər çuğunduru əkilmişdir ki, 1202 ton məhsul istehsal olunmuşdur. Bunun müqabilində 95 ton 500 kq şəkər tozu alınıb istehsalçılara paylanmışdır. 2008-ci ilin payızında 1400 hektarda buğda, 270 hektarda isə arpa əkilmişdir. Ötən ildə əkinçilikdən 5 milyon 677 min 500 manat gəlir əldə edilmişdir ki, bu da əvvəlki ildən 110.1% artıqdır.

Rayonda heyvandarlığın inkişafı da xeyli yüksəlmişdir. Bu gün rayonda 9276 baş iribuynuzlu mal-qara, 14126 baş xırdabuynuzlu, 13800 baş quş və 198 arı ailəsi var. Mal-qaranın sayı 2007-ci ilə nisbətən 73 baş artmışdır.

2008-ci ildə rayonda kanallarda 23 min 797 manatlıq təmir işləri aparılmışdır. 19 min 816 manatlıq yeni avadanlıq quraşdırılmışdır. 12 ədəd subartezian quyusu

qazılaraq istismara verilmişdir. 107 ədəd subartezian quyusu əsaslı təmir edilmiş, 7 ədəd artezian quyusuna yeni nasos quraşdırılmışdır. 5 min 600 manat su pulu yığılmışdır. Rayon üzrə 12 hektar sahədə yeni bağ salınmışdır ki, 18050 ədəd ağac əkilmişdir. Bu bağların suvarılması üçün 690 m uzunluğunda su xətti çəkilmişdir.

Sədərək rayon yollarının bərpası və tikintisində də müəyyən işlər görülmüşdür. Belə ki, 15737 km2 sahədə asvalt salınmış, yol-təmir idarəsi 2,2 km məsafədə çınqıllama işləri aparılıb. Rayon yol-təmir istismarı idarəsi il ərzində 16 min 682 manatlıq iş görüb.

Rabitə işçiləri də öz işlərində xeyli irəliləyiş etmişlər. Onlar əhaliyə 114 min 666 manatlıq xidmət göstərmişlər. 2008-ci ildə rabitə işçiləri 194 evə telefon çəkmiş, tapşırığa 108,7% əməl etmişlər.

Elektrik enerjisi işçiləri tərəfindən 4 milyon 505 min kilovatt saat enerjidən 295 min 800 manat enerji pulu toplamışlar. Bunun müqabilində əhalini fasiləsiz eleektrik enerjisi ilə təmin etmək məqsədi ilə rayon üzrə 4 yarım-stansiya quraşdırılmışdır. Qaz istismar idarəsi işçiləri də xeyli iş görmüşlər. Belə ki, il ərzində qaz idarə işçiləri 131 min 138 manat qaz pulu toplamışlar.

Rayonda təhsil sahəsində də ürəkaçan işlər nəzərə çarpır. Ötən il rayon məktəbləri üzrə 103 şagird orta məktəbi bitirmişdir. Onlardan 16 nəfəri respublikanın müxtəlif ali məktəblərinə qəbul olmuşlar. Təhsil sahəsində qahanılan uğurlu nəticəyə görə bir nəfər müəllim Respublika Prezidentinin fərmanı ilə «Tərəqqi» medalına, bir nəfər müəllim isə «Naxçıvan MR-in Əməkdar müəllimi» fəxri adına layiq görülmüşdür. Bu gün rayon ümumtəhsil

məktəblərində 1446 şagird, o cümlədən birinci siniflərdə 110 şagird təhsil alır.

İl ərzində rayonun tibb müəssisələrində 272 nəfər stasionar müalicə almış xəstələrə 11 min manatlıq dərman sərf edilmişdir. Rayon Mərkəzi xəstəxanası üzrə 4150 çarpayı günü ayrılmışdır. Sədərək rayonu Dövlət Sosial Müdafiə Fondu şöbəsinə 2008-ci ildə yerli mənbələrdən 434 min 280 manat vəsait daxil olmuşdur ki, bu da 2007-ci ildəkindən 113 min 380 manat çoxdur. Ötən ildə pensiyaçılara 2221 nəfər 1 milyon 958 min 900 manat pensiya ödənilMişdir. Ünvanlı sosial yardım alan 105 ailənin 424 nəfərinə 94 min 941 manat, sosial müavinət alan 841 nəfərə isə 305 min 134 min manat vəsait ödənilmişdir.

İl ərzində 137 nəfərə müavinət ödənilmişdir. 98 nəfərə yeni doğulmuş uşağa görə 3 min 463 manat birdəfəlik müavinət verilmişdir.

Böyük Vətən müharibəsi əlillərindən 3 nəfərə «Oka» markalı minik avtomobili verilmişdir. Bundan başqa, müharibə iştirakçılarına RİH-in hədiyyələri verilmişdir.

Tədbirdə məruzə ətrafında çıxışlarda rayonda görülən uğurlu işlər barədə və mövcud nöqsanlar da tənqid olunmuşdur. Bu nöqsanlardan nəticə çıxarılması tövsiyə olunmuşdur.

## ŞƏRURDA 2008-Cİ İLDƏ QAZANILMIŞ UĞURLAR MÜZAKİRƏ EDİLİB



Bu günlərdə Şərur rayon İcra Hakimiyyətində 2880-ci ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş tədbir keçirilib.

Tədbirdə Şərur rayon İcra Hakimiyyətinin başçısı Elmar Quliyev geniş məruzə ilə çıxış edib. E.Quliyev bildirib ki, il ərzində rayonda 28 milyon 31 min 100 manatlıq sənaye məhsulu istehsal olunub ki, bu da 2007-ci illə müqayisədə 24,5 faiz çoxdur: «Rayonda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün maliyyə mənbələrindən əsas kapitala 28 milyon 277 min 900 manat sərf edilib ki, bu da 2007-ci illə müqayisədə 10,8 faiz çoxdur. Rayonda 70-dən çox obyektdə tikinti-quraşdırma, yenidənqurma, əsaslı təmir, abadlıq və bərpa işləri aparılıb. Rayon Hərbi Komissarlığının, ƏƏSM mərkəzinin, 1 saylı Sədərək-Şərur seçki dairəsinin inzibati binaları, Zeyvə və Qarxun kəndlərində kənd mərkəzləri və həkim ambulatoriyaları, Vərməziyar və Aşağı Yayçı kəndlərində 224 şagird yerlik məktəb və kənd mərkəzləri, həkim ambulatoriyaları və ticarət mərkəzi, Gümüşlü kəndində

1 və 2 nömrəli yaşayış binaları yenidən qurularaq və ya əsaslı təmir edilərək istifadəyə verilib. Rayonda 720 ha sahədə kartof əkini keçirilib, 9432 ton məhsul əldə edilib, hər hektardan məhsul 131 sentnerə çatdırılıb. Bunun müqabilində rayonda kartof əkənlərə Naxçıvan MR İnqtisadi İnkişaf Nazirliyi tərəfindən 385 manat dəyərində faizsiz kredit verilib. Bundan başqa, 2008-ci il ərzində 756 istehsalçıya 7165 hektar əkin sahəsinin becərilməsinə görə 286 min 600 manat pul vəsaiti verilib. ASC tərəfindən 441 min manat dəyərində müxtəlif mineral gübrələr də verilib. Təkcə 6 ay ərzində rayonda heyvandarlıq məhsullarının istehsalında artım müşahidə olunub. Diri çəkidə 5427,9 ton ət, 23689,7 ton süd, 18 milyon 773 min 500 ədəd yumurta, 163,5 ton yun istehsal edilib».

E.Quliyev qeyd edib ki, Şərur rayonunda 2008-ci ildə qaz çəkilişi tam başa çatdırılıb: «Bu gün 16600 abonentə qaz xətti çəkilib, 14899 nəfərin evində qaz sayğacı quraşdırılıb. Rayonda 11 milyon 283 min 62 kub.m təbii qaz daxil olmuş, bunun müqabilində 605 min 459 manat vəsait toplanıb».

Rayonun təhsil, mədəniyyət, səhiyyə və digər sahələrində də ciddi uğurların əldə edildiyini deyən E.Quliyev əldə edilmiş nəticələri açıqlayıb: «Ötən ilin 11 ayı ərzində rayonda 9 məktəb, 2 uşaq bağçası, 3 uşaq musiqi məktəbi, tibb məktəbi, 4 xəstəxana, 9 həkim ambulatoriyası, 3 feldşer-mama məntəqəsi, 50 inzibati obyekt, müharibə əlilləri və şəhid ailələri üçün 37 mənzil, 5 yaşayış binası, xeyli mədəniyyət müəssisəsi, idman qurğuları həm tikilib, həm də əsaslı təmir olunub. Bunlardan başqa, rayonda 34 istehsal müəssisəsi, 15 yeni inzibati bina istifadəyə verilib, 138 km uzunluğunda yol əsaslı təmir edilib. Rayonda ümumi daxili məhsul istehsalı 29 faiz artaraq 695 milyon 906 min manat olub. Bunlardan başqa, rayonda rabitə-poçt xidməti 46 faiz, əhalinin pul gəlirləri 35 faiz, orta aylıq əməkhaqqı 51 faiz çoxalmış, 6407 yeni iş yerləri yaradılmışdır ki, bunun da 4447-si daimi iş yerləridir.

Rayonda sahibkarlığın inkişafına da diqqət və qayğı göstərilir. Sahibkarlığın inkişafı üçün 17 milyon manat kredit verilib».

Tədbirdə rayon təşkilat rəhbərləri çıxış edib görülən işlər barədə ətraflı məlumat veriblər. Qeyd olunub ki, rayon əməkçiləri daha yüksək göstəricilər əldə edə bilərlər.

## «AĞ AŞIQ YUSİF SƏDƏRƏKLİ» VƏ «MƏN KİMƏM?» KİTABLARI DƏYƏRLİ KİTABLARDIR

Əməkdaşımız Hacı Tofiq Seyidovu mən 1999-cu ildən tanıyıram. «Azad Azərbaycan» qəzetinin Naxçıvan üzrə bölgə müxbiri olan qələm dostumuz həm də ADPU-nun dissertantıdır. Bu günlərdə onun 30-cu kitabı işıq üzü görüb. Demək olar ki, bütün kitabları barədə qəzetimizin səhifələrində məqalələr dərc olunub. T.Seyidov «Ağ Aşıq Yusif Sədərəkli» kitabı üzərində xeyli müddət işləyib və bu yaxınlarda çap etdirib.

Qeyd edək ki, Ağ Aşıq Yusifin indiyədək 1250 qohması, təcnisi, dodaqdəyməzi, gəraylıları, bayatıları, müxəmməsləri, həcvləri toplanıb.

... Ağ Aşıq Yusif 1930-cu ildə Sədərək kəndində doğulub. Kənd məktəbinin nəzdindəki əyani-qiyabi orta məktəbi bitirib. Onun ilk ustadı Əli Nəcəfoğlu olub. Atası Məhərrəm kişi söz dəryası idi. İmkanı olmadığı üçün oğlu Yusifə həyətlərindəki tut ağacından saz düzəltmişdi. Elə həmin «saz»la Ağ Aşıq Yusif çox hava öyrənmiş, dastanlar söyləmiş, el-oba şənliklərində iştirak etmişdi. Ağ Aşığın yaxın dostu, xalq şairi Hüseyn Arif onu Azərbaycan Aşıqlarının 4-cü Qurultayına nümayəndə seçmişdir. Qurultayda o, çıxış edərək aşıq sənətinin dərinlikləri barədə həmkarlarına dəyərli fikirlər söyləmişdir. Heç təsadüfi deiyl ki, Ağ Aşıq həmin qurultayda mükafat almışdır. Onun qoşma və təcnisləri almanaxda çap olunmuşdur. Ağ Aşığın Hüseyn Arifə həsr etdiyi çoxlu şeirləri, qoşmaları var. O, bir qoşmasında deyir:

Yurdumun fərəhi sığmırdı göyə,
Sən gələndə bizim elə, ay şair!
Gördüm səndə Vurğun, Vaqif təbi var,
İlhamın dönmüşdü selə, ay şair!

Bu bənd şeirlə AğAşıq Səmədi, Vaqifi dərindən bildiyini bildirir və Hüseyn Arifin Naxçıvana gəlməsini sevinclə, məhəbbətlə tərənnüm edir.

«Ağ Aşıq Yusif Sədərəkli» kitabının II hissəsində bizi ən çox sevindirən odur ki, bir tədqiqatçı kimi Hacı Tofiq çox zəhmət bahasına XVIII əsrdən bu günədək Naxçıvan aşıqları barədə məlumatları toplamış, onların qoşma, təcnis, rübailəri və gəraylılarını oxuculara çatdırmışdır. Bu, asan iş deyil, illər tələb edir, zəhmət, iradə və ən əsası isə çavad tələb edir ki, onlar da müəllifdə var. Doğma torpağı Naxçıvanı çox sevdiyi üçün o torpağın sazlı, sözlü aşıqlarını, nəğməkarlarını axtarıb tapır. Müəllif bildirir ki, 1935-ci ildən Naxçıvanda Aşıqlar İttifaqı fəaliyyət göstərir. O vaxt bu vilayətdə 50-dən çox aşıq birlikdə fəaliyyət göstərirdi.

1993-cü ildə Aşıqlar qurultayında Naxçıvandan 8 nəfər sayılıb-seçilən aşıqlar iştirak edib, 2007-ci ildə də Naxçıvandan V Aşıqlar Qurultayına 6 aşıq dəvət olunub.

Kitabda oxuculara bir maraqlı fakt da çatdırılır ki, Ağ Aşıq Şərur rayonunun Kosacan kəndindən olan Allahverdi aşıq Alının ustadı olub. Aşıq İmamqulu, Aşıq Həmid Ağamalıyev, Aşıq Nabat, Aşıq Molla Mehdi, Aşıq Gülalı Məmməd, Aşıq Cəfər, Aşıq Çoban Fərman, Aşıq Cəmil, Aşıq Sərraf Qasım, Dəllək Vəli və İbrahim Həsənovlar, Qeysərli İsmayıl, Kabatağı oğlu Mahmud, Aşıq Əlixanxanım oğlu, Aşıq Həmid Abdullayev Naxçıvanda yazıb-yaradan aşıqlardandır. Bunlardan başqa qadın aşıqlardan aşıq Heyranxanım və aşıq Nabatın adı iftitxarla çəkilir.

Aşıq Allahverdi (Ağ Aşıq ləqəbi ilə tanınıb) əsasən ömrünün çoxunu Göyçədə keçirib. Amma buna baxmayaraq, doğma Şərur torpağını da heç vaxt unutmur. O deyir:

**Eləmi Göyçəyə mən,**
**Gözələ, göyçəyə mən,**
**Qürbətdə həsrət qaldım,**
**Vətənim Şərurə mən.**

**Aşıq Həmid Ağamalıyev Şəruru belə tərif edir:**

**Əzizinəm qulaq asın,**
**Deyirəm dastan Şərura.**
**Oğlanları igid, mətin,**
**Qızları ceyran Şərura.**

**Gündə yüz min qonaq gəlsə,**
**Olacaq heyran Şərura.**

**Və yaxud:**

**Belə bir elin yolunda,**
**Hansı igid qıymaz cana,**
**Bir canım var, aşıq Həmid.**
**Qoy olsun qurban Şərura.**

Aşıq Yusif Sədərəklinin irəvanlı səyyah Məhəmməd ilə deyişməsi, məktublaşması da kitabda öz əksini tapıb. Aşıq Səyyada xəbər çatır ki, dostun Ağ Aşıq Yusif Sədərəkdə «bazarkom» olub. Bu hadisə onu sarsıdır və dostuna məktub yazıb göndərir. O deyir:

Eşitmişəm sən bazarkom olmusan,
Etibarla dolan, batarsan, aşıq.
Ayə, bu sevdan da mübarək olsun,
Səhv edib sazı da atarsan, aşıq.

İncəsənət hara, tacirlik hara...
Bəyəm sevda bülbül uyarmı xara?
Niyə telli sazın gəlmədi kara?
Yel əssə də onu atarsan, aşıq.

Cavabında Ağ Aşıq Yusif deyir:

Məndən salam olsun, səyyah Məmməd,
Ustad sözü el içində alınmır.
Bütün aləm olub caz, stilyaqa,
O səbəbdən mənim sazım çalınmır.

Dinləyir balalaykanı, sevməyir sazı,
Kimi dindirirsən yüz ondur qazı,
Gedir çestuşkanı, oynayır cazı,
Sənətkar qeydinə qalınmır indi.

Müəllif göstərir ki, Ağ Aşıq Yusif Sədərəkli aşıqları, nəğməkarları, səhnə ustalarını hədsiz dərəcədə sevirdi, onların yubileylərində iştirak edər, öz qoşması, təcnisi ilə çıxış edərdi. O, 1973-cü ildə görkəmli el aşığı Aşıq Şəmsinin 80 illiyinə özü gələ bilməsə də, əli çatmasa da, ona qoşma hədiyyə edib:

Uzun etdin Ağ Aşığın dilini,
Təbrik etdim mən də səksən ilini,
Qoşmalardan iyləyirik iyini,
Naxçıvana qonaq dilərəm səni.

Ümumiyyətlə, Ağ Aşıq Yusif Sədərəkli çox istedadlı el sənətkarı idi. Onun ölməzliyi ondadır ki, o hər sahəyə qoşma, təcnis, dodaqdəyməz qoşmuşdur.

Müəllifin ikinci kitabı Seyid Qasımın yaradıcılığına həsr olunub. Xatırladaq ki, Seyid Qasım Sədərəkdə doğulsa da, o, 1937-ci ildən deportasiya zamanı Bərdə rayonunun İrəvan kəndində əmisi Seyid Qəzənfər və ailələri ilə birgə məskunlaşmışlar. Seyid Qasım orta məktəbi də orada başa vurub. Şeir həvəskarı olub. Onun şeirlərində dinimizə hörmət və itaət, düzgünlük, ədalətli olmaq, vətəni sevmək, böyüklərə hörmət əsas yer tutur.

«Mən kiməm?» kitabında Sədərəkdə 200 il bundan öncə öz xeyirxahlığı ilə kimsəsizlərə qayğı göstərmiş Qara Mirkazım ağa və onun övladları barədə ətraflı məlumat verilir. Qara Seyid Mirkazım ağa Sədərəyə Taun xəstəliyi gələndə camaatı səfərbər edib, müsəlliyə çıxmış, qurban kəsdirmiş, dindarlarla namaz qılıb Allaha dua etmiş, özünü və oğlunu uşaqlara və xəstələrə, qocalara Allah yolunda qurban vermişdir. Duası qəbul olunduğu üçün Qara Seyid Mirkazım ağa namazın üstündə öz şirin canını Rəbbinə tapşırmışdır.

Müəllif göstərir ki, Sədərəkdəki Qurbanlı məscidində (1243) Qara Mirkazımın kötücəsi onun xatirəsinə bir abidə tikdirib. Hacı Fazil bu abidəni tikdirməkdə çox xeyirxah iş görüb. Bu abidə sədərəklilərin ziyarətgahıdır.

Kollektivimiz Hacı Tofiq Seyidovun bütün tədqiqatları ilə maraqlanır, onun uğurlu işlərinə sevinir. O, ilk dəfə olaraq Sədərəyin tarixinin 1597-ci ildən başladığını, Sədərəkdə 24 kəndin olmasını, əsirlikdə qalan 70-dən artıq yaylaq, yurd yerlərinin olduğunu üzə çıxarıb. Hacı Tofiq Seyidovun arxivlərindən bir çox tarixi, dəyərli faktları arayıb-axtarması və üzə çıxarması onun gərgin zəhmətinin nəticəsidir. Bu gün onun işıq üzü görmüş iki yeni kitabının da gənc nəslin təbiyəsində, Sədərək tarixinin öyrənməsində mühüm rolu oynayacaqdır. Müəllifə yeni uğurlar arzulayırıq.

Məhz bu kimi xidmətlərinə görə əməkdaşımız Hacı Tofiq Seyidov «XX əsr Azərbaycan yazıçıları» kitabında və «XXI əsr Azərbaycan ziyalıları» ensiklopediyasında özünə layiqli yer tutub.

Köçəri İSGƏNDƏROV,
«Azad Azərbaycan» qəzetinin müxbiri

## ŞƏRUR RAYON PEŞƏ LİSEYİ KADRLARIN HAZIRLANMASINA CİDDİ YANAŞIR

Bu gün respublikamızda başqa sahələrlə yanaşı gənclərin peşə təhsili sahəsində mühüm tədbirlər həyata keçirilir. Ölkə başçısının 2007-2012-ci illər üçün imzaladığı sərəncamı Dövlət Proqramının həyata keçirilməsi sahəsində Şərur rayon Peşə Liseyində mühüm addımlar atılır. Peşə Təhsili liseyi özünün başlıca vəzifəsini, peşə təhsilinin yüksəlməsi və onun məzmunun Müasir tələblər səviyyəsində yeniləşməsində görür.

Şərur rayon Peşə Liseyi 1971-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. Ona qədər bu məktəb 121 saylı texniki-peşəi məktəbi adlanırdı. Məktəbin bütün kəndlərdə bölmələri var idi. Mən özüm o məktəbdə rus dili dərsi deyirdim. 1996-cı ildən isə təhsil müəssisələrinin adı dəyişdirilərək Şərur rayon Peşə Təhsili Liseyi adlandırılıb.

Liseyin müdiri Vəli Əhmədovla söhbətimizdə lisey barədə ətraflı məlumat aldıq. Ona suallarla müraciət etdik:

- Vəli müəllim, bu gün Şərur rayon Peşə Liseyində hansı ixtisaslar var?

- Şərur rayon Peşə Liseyində 4 ixtisas üzrə 9 qrup fəaliyyət göstərir. Onlar üçün hər cür şərait yaradılıb. Bu dərs ilində liseyə 5 qrupdan ibarət 90 nəfər şagird qəbul edilib. Liseydə oxumağa çoxlarının marağı var. Məktəbdə müxtəlif peşələr öyrədilir. Modelçi, dərzi, traktor-maşınçı, mühasib, fərdi kompüter operatoru, dayə peşələri üzrə mütəxəssislər hazırlanır. Liseydə konkret baza yoxdur. Əsasən bizim Peşə Liseyi rayonumuzun idarə müəssisələrində işləmək üçün kadrlar hazırlayır. Bunun üçün biz rayonun idarə və müəssiləri ilə müqavilə bağlayırıq.

- Liseydə təhsil müddəti neçə ildir?

- Bizim liseydə təhsil müddəti üç ildir. 2008-ci ildə üçillik təhsil bazasından 15, birillik təhsil bazasından isə 41 şagird təhsillərini başa vurub, tam kursları bitirib diplom

almışlar. Liseyimizi bitirən şagirdlərimizin 3 nəfəri keçən il ali məktəblərə qəbul olunublar.

- Kadrların hazırlanması üçün nə kimi işlər görülməlidir?

- Layiqli kadrlar hazırlamaq üçün iqtisadiyyatın inkişafı, bazar münasibətləri ilə bağlı səriştəli ustalara olan ehtiyac peşə təhsilinin əsaslı surətdə yenidən qurulmasını tələb edir.

- Liseydə neçə nəfər müəllim çalışır?

- Bizim liseydə 8 nəfər fənn müəllim, 9 nəfər istehsalat ustaları çalışır. Məhz onların gərgin əməyi nəticəsində uğurlarımız ildən-ilə artır. Liseydə dərslər kabinə üsulu ilə keçirilir. 2008-2009-cu tədris ilində liseydə «Tarix-coğrafiya», «Azərbaycan dili və ədəbiyyatı» kabinələri yenidən qurularaq şagirdlərin ixtiyarına verilib. Daxili imkanlarımız hesabına liseydə tədris kabinələrində təmir işləri də aparmışıq. Liseydə təlim metodlarından istifadə edirik. Rayon məktəblərində tez-tez oluruq. Şagirdlərlə söhbətlər aparırıq, müktəblərlə mütəmadi olaraq sıx əlaqə saxlayırıq. Müxtəlif tədbirlər keçiririk, idman yarışları keçirilir, qaliblər diplom və hədiyyələrlə mükafatlandırılır. Məktəbdə dövlət tədbirlərinə aid stendlər, ulu öndərimizin həyat və fəaliyyətini əks etdirən, həmçinin dövlət atributlarını əks etdirən stendlər öz əksini tapıb. 2008-2009-cu ili uğurla başa vurmaq üçün bütün səy və bacarığımızı əsirgəmirik.

MÜNDƏRİCAT

Naxçıvan .......................................................... 3
Müqəddimə........................................................... 4
Azərbaycanın incisi ................................................ 7
Naxçıvan-MR 85 ...................................................19
2008-ci ildə AMEA-nın Naxçıvan bölməsinin fəaliyyəti uğurlu olub ......................................................24
Akademik Həsən Abdullayevin 90 illik yubileyi qeyd olunmuşdur.........................................................29
Görkəmli partiya və dövlət xadimi, hamının sevimlisi Afiyəddin Cəlilov yaşasaydı, 63 yaşı tamam olacaqdı........32
Gəncədə «Naxçıvana yardım xeyriyyə cəmiyyəti»nin yaranması barədə...................................................37
Görkəmli alim və elm təşkilatçısı...............................43
Naxçıvan Dövlət Universiteti Beynəlxalq «Minilliyin Universiteti» mükafatına layiq görüldü.............................46
NDU-nun uğurları hamımızı sevindirir ......................49
Sədərək məktəbinin məzunu Türkiyə Böyük Millət Məclisində layihə ilə çıxış etdi............................................51
Naxçıvan Muxtar Respublikası səhiyyə işçilərinin 85 illiyi və səhiyyə işçilərinin 2008-ci ildəki uğurları ...........54
40 ildən sonra arxivlərdə tapdığım ziyalı ......................56
Araşdırmalar uğurlu nəticələr verəndə.........................60
Alimin ömür yolu ....................................................64
Alimlərin Naxçıvana təbriki.......................................69
Ömür vəfa etsəydi ....................................................74
2008-ci ili Sədərək rayonu uğurlu nəticələrlə başa vurub ..........................................................78
Şərurda 2008-ci ildə qazanılmış uğurlar müzakirə edilib ...........................................................83
«Ağ Aşıq Yusif Sədərəkli» və «Mən kiməm?» kitabları dəyərli kitablardır ...............................................86
Şərur rayon peşə liseyi kadrların hazırlanmasına ciddi yanaşır...........................................................91

| | |
|---|---|
| Nəşriyyatın direktoru: | H.Hacıyev |
| Texniki redaktor: | R.Əliyeva |
| Korrektorlar: | G.İsmayılova |
| | G.Məmmədova |
| Kompüter yığıcısı və dizayner: | Ş.Əliyeva |

Çapa imzalanmış 3. 03. 2009-cu il
Kağız formatı 60x84 1/16, çap vərəqi 6
Sifariş 56, sayı 100

ADPU-nun mətbəəsi
Bakı, Ü.Hacıbəyov küçəsi, 34
Tel: 493-74-10